QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 128 (5848) **18 iyul** 2019-cu il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycanla Gürcüstan arasında ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir

*Prezident İlham Əliyev: “Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir”*

Səh 2



3

BMT Baş Assambleyasında Azərbaycanda həyata keçirilən sosial islahatlar barədə danışılıb



14

Əli Kərimlinin “miqrant alveri” biznesinin “dileri” kimdir?



4

Azərbaycanda əhalinin sayı 10013133 nəfərə çatıb



# Azərbaycanla Gürcüstan arasında ikitərəfli münasibətlər mükəmməl hüquqi bazaya malikdir

## Prezident İlham Əliyev: “Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir”

***Müstəqil dövlət kimi, Azərbaycanın dünya dövlətləri, təşkilatları ilə əməkdaşlığı və dostluq münasibətlərinin inkişafı ölkəmizin xarici siyasət kursunda prioritet istiqamətlərdəndir. İqtisadi, siyasi, sosial və s. sahələrdə qurulan əməkdaşlıq münasibətləri dövlətlər arasında qarşılıqlı anlaşmanın qurulmasına və davamlı olmasına təsirini göstərir. Mövcud münasibətlər çoxşaxəli, qarşılıqlı maraq əsasında qurulub, əməkdaşlıq əlaqələrinin inkişafına üstünlük verilib.***



Azərbaycan müstəqillik əldə etdikdən sonra 1995-ci ilin fevral ayında Bakıda Gürcüstan səfirliyinin, 1996-cı ilin mart ayında isə Tbilisidə Azərbaycan səfirliyinin açılışı ikitərəfli əlaqələrin inkişafına əlavə stimul verib. Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Cari ilin fevral ayında Gürcüstan prezidenti xanım Salome Zurabişvilinin Azərbaycan səfəri də bu münasibətlərin möhkəmliyini bir daha təsdiq etmiş oldu. Onun regionda birinci səfərinin Azərbaycan olması qonşu və dost ölkə olduğuna əsaslanır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin görüş zamanı bildirdiyi kimi, biz əsrlər boyu mehriban qonşuluq şəraitində yaşamışıq və bu gün uğurla inkişaf edirik: “Bizim birgə həyata keçirdiyimiz layihələr həm ölkələrimiz, həm qitə, həm də dünya üçün önəmlidir. Yeni biz çox uğurlu əməkdaşlıq formatı yarada bildik. Əminəm ki, növbəti illərdə bütün sahələr üzrə əməkdaşlıq daha da dərinləşəcək və genişlənəcək. Bunu bizim siyasi iradəmiz diktə edir. Əminəm ki, biz bütün məsələlərdə hər zaman bir-birimizin yanında olacağıq, bir-birimizə dəstək göstərəcəyik, necə ki, bu günə qədər bütün məsələlərdə həmişə bir yerdə olmuşuq”.

Gürcüstanla Azərbaycanı, hər şeydən əvvəl, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və TRASEKA kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Regionda yeni mühüm bir layihəni ərsəyə gətirmək üçün iki dövlətin mövqeləri üst-üstə düşür. Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstan və Azərbaycanın bütün sahələrdə çox uğurla əməkdaşlıq etdiyini və bu əməkdaşlığın böyük hissəsinin energetika sektoruna aid olduğunu bildirib: “Bu əməkdaşlığın böyük tarixi var və biz birgə səylərlə çox önəmli böyük layihələri icra edə bilmişik. Əgər tarixə nəzər salsaq, görərik ki, hələ 1990-cı illərin sonlarında Bakı-Supsa neft kəmərinin tikintisi böyük hadisə idi. Bu, imkan verdi ki, Xəzər dənizi Qara dənizlə neft kəməri ilə birləşsin. Ondan sonra, əlbəttə ki, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri tikildi. Bütün bunları, biz, yəni üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə birgə səylərlə həyata keçirdik”. Həyata keçirilən bu layihələr iqtisadi inkişafa böyük təsirini göstərməkdədir. “Bu marşrut üzrə bu gün “Cənub Qaz Dəhlizi” layihəsi uğurla icra edilir” deyən Azərbaycan Prezidenti “Cənub Qaz Dəhlizi”nin reallaşmasına az vaxt qaldığını söyləyib: “Keçən il bu layihənin icrası ilə bağlı çox önəmli il olmuşdur. Keçən il “Cənub Qaz Dəhlizi”nin rəsmi açılış mərasimi olmuşdur və onun əsas hissəsini təşkil edən TANAP layihəsi də istifadəyə verilmişdir. Artıq TANAP xətti ilə qazın nəqli təmin edilir. Bu layihələr ölkələrimiz üçün, bölgə üçün böyük əhəmiyyət daşıyır, geniş mənada, əməkdaşlığı dərinləşdirir. Əgər layihələrin əvvəlində üç ölkə əməkdaşlıq edirdisə, bu gün bu ölkələrin sayı böyük dərəcədə genişlənir və yeni tərəfdaşlar bu layihələrə cəlb edilir”.

Bütün sahələrdə uğurlu əlaqələr böyük layihələrin reallaşmasına səbəb olur və iki dövlət arasında olan dostluğun təməlini daha da möhkəmləndirir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Bizim bütün sahələr üzrə əməkdaşlığımızın çox böyük perspektivləri, ən əsası isə, güclü siyasi iradə var. Gürcüstan və Azərbaycan bundan sonra da bir-birini dəstəkləyəcək. Biz reallaşan layihələri bundan sonra da inkişaf etdirəcəyik və yeni layihələr haqqında düşünəcəyik”.

Azərbaycanla Gürcüstan arasında əlaqələrin dosluq, qarşılıqla anlaşma şəraitdə olduğu halda, bu münsibətlərə xələl gətirmək niyyətində olan qüvvələr də var. Bildiyimiz kimi, bu günlərdə Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzinin məlumatına istinadən DSX-nin Sərhəd Qoşunlarının “Şəmkir” sərhəd dəstəsinin “Keçikçi qala” sərhəd zastavasının xidməti ərazisində Gürcüstan vətəndaşları tərəfindən Azərbaycan sərhəd naryadına qarşı insident törədilmişdir. Hadisə ilə əlaqədar təxirəsalınmaz tədbirlər görülməklə, insident qısa müddət ərzində, aradan qaldırılmış və DSX-nın şəxsi heyəti tərəfindən ərazidə təhlükəsizlik tədbirləri təmin edilmişdir. Azərbaycan və Gürcüstan sərhəd nümayəndələri arasında görüş keçirilmiş, baş vermiş hadisə birgə araşdırılmış, gələcəkdə bu kimi hallara yol verilməməsi üçün görülməli olan tədbirlər müzakirə edilmişdir.

“Keşikçi qala” sərhəd məntəqəsində baş vermiş məlum hadisə ilə bağlı Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov AZƏRTAC-a açıqlamasında bildirib ki, son aylar ərzində, Azərbaycan və Gürcüstan arasında strateji münasibətlərin ruhuna tamamilə zidd olan bu tipli təxribatların artan xətt üzrə inkişafı müəyyən suallar doğurmaya bilməz: “Artıq hər iki tərəfin ekspertləri səviyyəsində müzakirələrdə, belə fikirlər səslənir ki, görünür, iki qonşu dövlət arasında formalaşmış dostluq, strateji tərəfdaşlıq münasibətləri kimlərisə ciddi narahat edir və bu ölkələri, onların xalqlarını qarşı-qarşıya qoymağa çalışan qüvvələr var”.

“Azərbaycan sərhədçilərinə qarşı törədilən son təxribat dövlətlər arasındakı münasibətlərə birbaşa zərbə vurmaq məqsədi daşıyır və ona görə də, hər iki ölkənin müvafiq qurumları ciddi araşdırmalar aparmalı, bu təxribatı törədən qüvvələri müəyyən edərək, onlara qarşı təsirli tədbirlər görməli idilər” deyən Ə. Həsənov bildirib ki, artıq Gürcüstanın Azərbaycandakı səfiri Xarici İşlər Nazirliyinə dəvət olunub, ondan məsələ ilə bağlı müvafiq izahat istənilib. Gürcüstan Xarici İşlər Nazirliyi də hadisəni pisləyən açıqlama ilə çıxış edib və bu istiqamətdə ciddi araşdırmalar apararaq günahkarların məsuliyyətə cəlb ediləcəyinə söz verib: “Əlbəttə, biz əminik ki, Azərbaycan və gürcü xalqları bundan sonra da belə məqamlarda təmkinlə, müdrikcəsinə davranaraq emosiyalara meydan verməyəcək, müvafiq rəsmi instansiyalar isə prinsipial şəkildə bu hadisələrin törədilməsində, iki dost ölkə arasında münasibətlərin gərginləşdirilməsində maraqlı olan qüvvələri, şəxsləri aşkarlayaraq cəzalandırılmalarını təmin edəcəklər. Qaranlıq dairələrin dövlətlərarası münasibətlər müstəvisində söz sahibinə çevrilmələrinə imkan verməmək olmaz və belə cəhdlərə birdəfəlik son qoyulmalıdır”.

Baş verən hadisələrdə böyük güclərin geosiyasi maraqları və onların daxili siyasi qüvvələrlə manipulyasiya cəhdləri özünü aydın büruzə verdiyin diqqətə çəkən Ə.Həsənov istər Gürcüstanda, istərsə də Azərbaycanda, əsasən, xarici təsir altında olan bəzi maraqlı siyasi qruplar baş vermiş insidentdən yararlanmağa və hakimiyyət uğrunda mübarizədə belə həssas məqamlardan istifadə etməyə çalışdıqlarını qeyd edib: “Görünən odur ki, bəhs olunan qruplar mövcud vəziyyətdən bəhrələnmək istəyən üçüncü tərəflərin tarixi-dini stereotiplərlə manipulyasiyası üçün açıqdırlar və bəzən də bilərəkdən xarici təsir üçün könüllü alət rolunu oynayırlar. Biz əvvəllər də ölkəmizin strateji maraqlarına qarşı “beşinci kolon”un imkanlarından istifadə cəhdlərini ifşa etmişik və buna yol verməmək zərurəti haqqında danışanda, məhz belə halları nəzərdə tuturuq”.

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Azərbaycan və Gürcüstan vətəndaşlarını qızışdırıcı çağırışlara uymamağı tövsiyə edərək, indi emosional çağırışlar, impulsiv davranış deyil, təmkin və müdriklik nümayiş etdirməyin zamanı olduğunu vurğulayıb.

Bildiyimiz kimi, Azərbaycan-Gürcüstan dostluğunun çox qədim tarixi kökləri var. Əsrlər boyu qonşu olan Azərbaycan və gürcü xalqları arasında heç bir zaman ciddi problem, münaqişə olmayıb. Azərbaycan-Gürcüstan dostluğu Cənubi Qafqazda əməkdaşlığın və təhlükəsizliyin qarantına çevrilib. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə dəstək olmuşlar. Xalqları birləşdirən istər tarixi əlaqələr, istər çoxəsrlik dostluq, qardaşlıq münasibətləri möhkəm təməl üzərindədir. “Münasibətlərimizin tarixi təcrübəsi göstərir ki, bizim talelərimiz də xeyli dərəcədə oxşar və bir-birinə bağlıdır” deyən Ə.Həsənov bildirib ki, bu tarixi təcrübə bizi qarşı duran tərəflər deyil, tərəfdaş olmağı, müstəqilliyimizi birlikdə qorumağı, sivil dünyaya birlikdə inteqrasiya etməyi öyrədir: “...Azərbaycan və gürcü xalqları arasında ədavət toxumları səpmək istəyənlərin cəhdləri heç bir nəticə verməyəcək. Radikal mövqe tutaraq xalqları, dövlətləri təxribata çəkmək, bir-birinə qarşı qoymaq meyilləri müdriklik, əsrlərin sınağından çıxmış qarşılıqlı etimad mühiti qarşısında məğlub olacaq və regionumuzun yeni reallıqlarını unudaraq orta əsrlərin xiffətini çəkənlərin ekstremist təşəbbüsləri iflasa uğrayacaq”.

**Nəzakət ƏLƏDDİNQIZI**

# BMT Baş Assambleyasında Azərbaycanda həyata keçirilən sosial islahatlar barədə danışılıb





*Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində səfərdə olan Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Əhmədov BMT Baş Assambleyasında əhali və inkişaf üzrə Qahirə konfransının 25 illiyi münasibətilə keçirilən yüksək səviyyəli iclasda çıxış edib.*

AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini 1994-cü ildə təşkil edilmiş Qahirə konfransının əhəmiyyətini vurğulayaraq konfransın həyata keçirilən təşəbbüslərin mərkəzində insanların rifahının ön planda olduğunu sübut etdiyini bildirib. Bununla yanaşı, o, ölkəmizdə həyata keçirilən sosial islahatlar çərçivəsində həyat səviyyəsinin yüksəldiyini, insan hüquq və bərabərliyinin təmin edildiyini, o cümlədən sosial xidmətlərə əlçatanlığın artırılması üçün kompleks tədbirlərin görüldüyünü diqqətə çatdırıb. Son 15 ildə Azərbaycanda 2 milyondan çox iş yerinin açıldığını, əməkhaqlarının və pensiyaların müvafiq olaraq bir neçə dəfə artırıldığını, əhalinin 1,6 milyon nəfər artaraq 10 milyona çatdığını vurğulayıb. Ötən dövr ərzində sosial infrastrukturun əhəmiyyətli dərəcədə yaxşılaşdırıldığını və yüzlərlə məktəb, tibb ocaqları və digər sosial obyektlərin inşa edildiyini diqqətə çatdırıb.

Baş Nazirin müavini, eyni zamanda, ölkəmizin gənclər və gender siyasətinə xüsusi önəm verdiyini və gənclərin, qadınların məşğulluğunun, o cümlədən onların ictimai-siyasi həyatda rolunun artırılması istiqamətində məqsədyönlü siyasətin həyata keçirildiyini bildirib. Bununla yanaşı, Əli Əhmədov Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü, BMT-nin Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul etdiyi qətnamələrin indiyədək yerinə yetirilmədiyini diqqətə çatdırıb.

Eyni zamanda, Baş Nazirin müavini Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində qısa müddət ərzində əhəmiyyətli işlərin görüldüyünü, DİM-lərin ölkə prioritetlərinə inteqrasiya edildiyini, habelə regionda və MDB məkanında ilk ölkə olaraq ikinci dəfə BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Könüllü Milli Hesabatın təqdim olunduğunu qeyd edib.



## Azərbaycanın Norveç və İsrail ilə əlaqələrinin inkişaf perspektivləri müzakirə olunub



Azərbaycanın Baş Nazirinin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Nyu-Yorkda Norveçin Beynəlxalq inkişaf naziri Daq İnqe Ulstein və İsrailin Ətraf mühitin mühafizəsi naziri, Təhlükəsizlik Şurasının üzvü Zeev Elkin ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, norveçli nazirlə görüşdə ölkələrimiz arasında münasibətlərin inkişaf perspektivləri, o cümlədən alternativ və bərpa olunan enerji mənbələrinin və enerji səmərəliliyinin artırılması istiqamətində əməkdaşlığın genişləndirilməsi barədə müzakirələr aparılıb. Bununla yanaşı, dayanıqlı inkişaf üzrə təqdim edilən Azərbaycanın ikinci Könüllü Milli Hesabatının yüksək səviyyədə hazırlandığı, inklüziv inkişaf və özəl sektorun prosesə cəlb edilməsi məsələlərinin hesabatda geniş işıqlandırılmasının təqdirəlayiq olduğu qeyd edilib.

İsrailli nazirlə görüşdə Əli Əhmədov İsrail-Azərbaycan münasibətlərinin inkişaf etdiyini deyib, bu uğurlu əlaqələrin gələcəkdə də davam etdiriləcəyinə əminliyini bildirib. Zeev Elkin Azərbaycan ilə İsrail arasında daim dostluq münasibətlərinin olduğunu, bu münasibətlərin Dayanıqlı İnkişaf Məqsədlərinin icrası istiqamətində yeni əməkdaşlıqlarla daha da möhkəmlənəcəyini diqqətə çatdırıb. Nazir ölkələrimiz arasında təhsil, səhiyyə və digər istiqamətlərdə əməkdaşlığın davam etdiyini, növbəti illərdə su və su resurslarının səmərəli istifadəsi sahəsində Azərbaycanla əməkdaşlıq etməyə hazır olduqlarını söyləyib, bununla əlaqədar ölkəmizə səfər etmək niyyətini bildirib.

Görüşdə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi istiqamətində Azərbaycanın uğurlu addımlar atdığı və bu sahədə ölkəmizin təcrübəsinin öyrənilməsinin vacibliyi qeyd edilib.

## Azərbaycan Ordusunun erməni kəndini atəşə tutması barədə Ermənistan mətbuatının yaydığı məlumatlar əsassızdır



Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası istiqamətində yerləşən bölmələri tərəfindən erməni kəndinin atəşə tutulması barədə Ermənistan mətbuatının yaydığı məlumatın heç bir əsası yoxdur. Bu məlumat yalandır və dezinformasiya xarakteri daşıyır. Bunu Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-ın sorğusuna cavab olaraq bildiriblər. "Eyni zamanda bildiririk ki, bu gün səhər saatlarında Göygöl rayonu ərazisində təsərrüfat işləri görən mülki traktor Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən snayper atəşinə məruz qalıb, itki yoxdur. Cavab tədbirləri nəticəsində düşmən susdurulub", - deyə nazirliyin məlumatında bildirilib.

## Azərbaycanda qoruqları idarə edəcək mərkəzin nizamnaməsi təsdiqlənib



Baş Nazir Novruz Məmmədov "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında Qərar imzalayıb. AZƏRTAC xəbər verir ki, Qərar Prezidentin "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzinin yaradılması haqqında" 2018-ci il 20 dekabr tarixli Fərmanına əsasən hazırlanıb.

Nizamnaməyə əsasən Dövlət Turizm Agentliyinin Qoruqları İdarəetmə Mərkəzi Dövlət Turizm Agentliyinin tabeliyində olan dövlət qoruqlarının ərazilərində yerləşən tarixi, mədəni irsə aid elementlərin, abidələrin elmi, tarixi və mədəni cəhətdən öyrənilməsinin, təbliğinin, məqsədyönlü istifadəsinin, qorunub saxlanmasının və inkişafının təmin edilməsi, qoruqların turizm potensialının artırılması sahəsində fəaliyyətlə məşğul olan publik hüquqi şəxsdir. Qeyd edək ki, Qoruqları İdarəetmə Mərkəzi Prezident İlham Əliyevin 2018-ci il 20 dekabr tarixli Fərmanı ilə yaradılıb.

# Azərbaycan ilə BMT-nin İnkişaf Proqramı arasında əməkdaşlığın genişləndirilməsinə dair müzakirələr aparılıb





***Baş Nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov BMT-nin İnkişaf Proqramının (BMTİP) Baş direktoru Akim Stayner və onun müavini, BMTİP-in Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Spolyariç Eqqer ilə görüşüb.***

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın BMT-nin İnkişaf Proqramı ilə ikitərəfli əməkdaşlığının genişləndirilməsi və birgə həyata keçirilən layihələrdə səmərəliliyin artırılması məqsədilə müzakirələr aparılıb. Azərbaycanın BMT-nin İnkişaf Proqramı çərçivəsində əməkdaşlığının uğurla davam etdiyini vurğulayan Baş Nazirin müavini 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu əməkdaşlıq çərçivəsində bir sıra mühüm sənədlərin imzalandığını qeyd edib. O, ölkəmizin BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri qlobal təşəbbüsünə qoşulması ilə bu təşkilatla əməkdaşlıqda yeni səhifə açıldığını vurğulayıb.

Azərbaycanda son dövrlərdə bütün sahələrdə inkişafın dayanıqlılığının təmin edilməsi istiqamətində aparılan islahatlar barədə məlumat verən Əli Əhmədov aparılan islahatlarda BMTİP ilə birgə icra olunan layihələrin mühüm önəm kəsb etdiyini bildirib. Eyni zamanda, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında da ön sıralarda olmağı planlaşdırdığı, bu məqsədlə ölkədə bütün strategiyalar və dövlət proqramlarının qlobal məqsədlərə uyğunlaşdırıldığı diqqətə çatdırılıb.

Baş Nazirin müavini Ermənistanın işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğunu və 1 milyondan çox azərbaycanlının yurd-yuvalarından qaçqın və məcburi köçkün düşdüyünü və bütün bunların ölkədə dayanıqlı inkişaf məqsədlərinə nail olunmasında çətinliklər yaratdığını bildirib.

BMT İnkişaf Proqramının Baş direktoru Azərbaycan Respublikasında aparılan səhvi islahatları və Azərbaycanın DİM-lərin həyata keçirilməsində göstərdiyi səyləri yüksək qiymətləndirib. O, Azərbaycanda DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı vəzifələrin kompleks əlaqələndirilməsi və icrası üçün Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılmasını, qısa müddət ərzində DİM-lərə inteqrasiya istiqamətində görülən işləri, habelə regionda və MDB məkanında ilk ölkə Azərbaycan tərəfindən BMT-nin Yüksək Səviyyəli Siyasi Forumunda ikinci Könüllü Milli Hesabatın təqdim olunmasını qeyd edib, bütün bunları ölkəmizin DİM-lərə nail olunmasında sərgilədiyi həssas yanaşmanın bariz nümunəsi kimi dəyərləndirib.

BMT-nin İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin hökumətlə çox səmərəli əməkdaşlıq qurduğunu və bu əməkdaşlığın digər region ölkələri üçün nümunə ola biləcəyini qeyd edən Miryana Spolyariç Eqqer dayanıqlı inkişafa nail olunması istiqamətində həyata keçirilən layihələrdə BMT-nin hər zaman Azərbaycana dəstək verməyə hazır olduğunu diqqətə çatdırıb.

# Xoşbəxt Yusifzadə: Qarşıdakı dövrdə əsas hədəf köhnələn yataqların ömrünü uzatmaqdır

***Qarşıdakı dövrdə əsas hədəf köhnələn yataqların ömrünü uzatmaqdır. SOCAR-dan AZƏRTAC-a bildirilib ki, bu sözləri şirkətin birinci vitse-prezidenti, akademik Xoşbəxt Yusifzadə deyib.***



"Dünyanın ən qədim neft sənayesinin beşiyi başında durmuş Azərbaycanda zəngin və peşəkar neftçi ənənələri formalaşıb. Lakin digər tərəfdən dünyanın ən qədim və uzun müddət ərzində istismar olunan yataqlarının məhz bizim ölkəmizdə olması qarşımızda çağırışlar yaradır. Bu baxımdan qarşıdakı dövrdə əsas hədəfimiz bütün vasitələrlə köhnələn yataqların ömrünü uzatmaqdır.

Digər tərəfdən yeni yataqlarımızın uğurla işlənilməsi ölkəmizdə qaz hasilatının artırılması və gələcəkdə neft gəlirlərinin müəyyən dərəcədə qaz gəlirləri ilə balanslaşdırılması üçün şərait yaradır. Bu ilin sonunadək ölkə üzrə ümumi qaz hasilatında 20 faiz artım gözləyirik. Növbəti illərdə də ölkədə qaz hasilatı yüksələn xətt üzrə inkişaf edəcək. Bu müsbət trend qarşımızda həm də qaz emalı və kimya sənayesinin inkişafı üçün yeni imkanlar açır", - deyə o bildirib.

# Hər bir ölkə sakini bu il orta hesabla 414 manatlıq müxtəlif ödənişli xidmətlərdən istifadə edib



Yanvar-iyun aylarında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə real ifadədə 1,5 faiz artaraq 4 milyard 90,1 milyon manat olub. Dövlət Statistika Komitəsindən bildirilib ki, hüquqi şəxslər tərəfindən əhaliyə 2 milyard 998,7 milyon manatlıq xidmət göstərilib, bu da xidmətlərin ümumi dəyərinin 73,3 faizini təşkil edib. Yarım ildə hər bir ölkə sakini orta hesabla 414 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 15,3 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.



## Azərbaycanda əhalinin sayı 10013133 nəfərə çatıb

İlin əvvəlindən ölkə üzrə əhalinin sayı 31 min 676 nəfər və ya 0,3 faiz artaraq 2019-cu il iyun ayının 1-i vəziyyətinə 10013133 nəfərə çatıb. Bu barədə Dövlət Statistika Komitəsindən məlumat verilib. Məlumata görə, əhalinin 52,8 faizini şəhər, 47,2 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir.

## Əhalinin nominal gəlirləri 6,6 faiz artıb

Yanvar-iyun aylarında ölkə əhalisinin nominal gəlirləri əvvəlki ilin eyni dövrünə nisbətən 6,6 faiz artaraq 27 milyard 355,8 milyon manat təşkil edib, əhalinin hər nəfərinə orta hesabla 2 min 768,6 manatlıq gəlir düşüb. Dövlət Statistika Komitəsindən verilən məlumatda deyilir ki, bütün icbari və könüllü ödənişlər edildikdən sonra əhalinin sərəncamında 25 milyard 131,5 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrünə nisbətən 6,7 faiz çox vəsait qalıb.

# “Yay məktəbi”nin iştirakçılarının Lerik rayonu ilə tanışlığı

***Yeni Azərbaycan Partiyasının təşkil etdiyi “Gənc liderlər üçün yay məktəbləri”nin ikinci turu çərçivəsində gənclərin iyul ayının 17-də Lerik rayonu ilə tanışlığı oldu.***



Lerik rayonu mərkəzində Şəhidlər Kompleksini ziyarət edən gənclərə məlumat verildi ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Lerik rayonu 140 şəhid verib. Onların 5-i şücaətlərinə görə Milli Qəhrəman adına layiq görülüblər. Azərbaycanın ilk Milli Qəhrəmanları sırasında da leriklilərin adı var. Rayonda hazırda 80 nəfər Qarabağ əlili var.

Sonra rayon mərkəzində ümummilli liderimiz Heydər Əliyevin ucaldılmış abidəsini ziyarət edən gənclər Ulu Öndərin əziz xatirəsini ehtiramla andı, abidəsi önünə gül düzdülər.

Gənclərin dünyada analoqu olmayan Uzunömürlülər muzeyi ilə tanışlığı isə böyük marağa səbəb oldu. Gənclərə məlumat verildi ki, muzey 1991-ci ildən fəaliyyət göstərir. Dünyada yeganə olan bu mədəniyyət ocağının binası müasir memarlıq elementlərindən istifadə edilməklə 2010-cu ildə inşa olunub. Həmin il iyunun 25-də isə Prezident İlham Əliyevin iştirakı ilə muzeyin yeni binasının açılışı olub.





Bildirildi ki, rayonda vaxtilə 500 nəfərdən çox uzunömürlü yaşayıb. Hazırda iki salondan ibarət muzeydə yaşı yüzdən yuxarı olan 50-dən çox lerikli haqqında 2 mindən çox eksponat, o cümlədən maraqlı məlumatlar, fotoşəkillər yer alıb. Buradakı 40-dək fotoşəkilin müəllifi olan fransız fotoqrafı Fredrik Laşop həmin əsərləri Parisdə təşkil olunmuş “Uzunömürlülər diyarına səyahət” sərgisində nümayiş etdirib. Daha sonra bu fotolar Fransanın ölkəmizdəki səfirliyi tərəfindən Lerikə gətirilərək Uzunömürlülər muzeyinə hədiyyə olunub. Vurğulandı ki, Uzunömürlülər Muzeyində yaşlı insanların şəkilləri asılmaqla, həm də onlara məxsus olan etnoqrafik materiallar, yaşadıqları dövrə aid tarixi əşyalar, kənd təsərrüfatında işlətdiyi alətlər, əl işləri də nümayiş etdirilir. Daha sonra gənclər Bayraq Muzeyi ilə tanış oldular.



Onlara məlumat verildi ki, Bayraq Muzeyi və hündürlüyü 36 metr olan bayraq dirəyinin yerləşdiyi Dövlət Bayrağı Kompleksi Lerik şəhərinin mərkəzində, ümummilli lider Heydər Əliyevin adını daşıyan meydanın ərazisində yerləşir. Bayraq Muzeyinin Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci ilin oktyabr ayının 15-də açılışı olub.

Bildirildi ki, muzeyin ümumi sahəsi 1200 kvadratmetr olan binası sərgi zalından, inzibati və yardımçı otaqlardan ibarətdir. Muzeyin sərgi zalında Azərbaycan xanlıqlar dövrünün xəritəsi, orta əsrlərə aid döyüşçüləri əks etdirən manekenlər, orta əsrlərdə xanlıqların istifadə etdiyi bayraqlar, XIX əsr Azərbaycan şəhərlərinin gerbləri, qədim metal sikkələr, kağız pullar, Azərbaycan Xalq Cümhuriyyəti, Azərbaycan SSR və müstəqillik dövrlərində qəbul edilmiş gerblər, bayraqlar, Azərbaycanın konstitusiyaları, Silahlı Qüvvələrimizin müxtəlif qoşun birləşmələrinin geyim formaları, poçt markaları, orden və medallar nümayiş olunur.

Ümumiyyətlə, bölgələrdə Bayraq muzeylərinin və Bayraq meydanlarının yaradılması Azərbaycanın dövlət atributlarına ən yüksək səviyyədə göstərilən diqqətin bariz nümunəsidir. Belə muzeylərin yaradılması dövlət atributlarına olan sonsuz sevgini nümayiş etdirməklə yanaşı, gənc nəslin Azərbaycan bayrağına hörmət ruhunda, əsl vətənpərvər kimi tərbiyə olunmasına mühüm töhfə verir.

Bununla yanaşı, bu işlər həm də Azərbaycan dövlətinin müstəqilliyini əks etdirən və hər bir vətəndaş üçün müqəddəs olan üçrəngli bayrağımıza göstərilən hörmət və ehtiramın təcəssümüdür. İndi Azərbaycan bayrağı ən nüfuzlu beynəlxalq təşkilatlar və mötəbər məclislərdə qürurla dalğalanır, dövlətimizi şərəflə təmsil edir.

Bayraq Muzeyi ilə tanışlıqdan sonra gənclər Heydər Əliyev Mərkəzində oldular.

Mərkəzlə tanış olan gənclərə məlumat verildi ki, mərkəz 25 iyun 2010-cu il tarixində Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Ümumi sahəsi 420 kvadratmetr olan mərkəzin 360 kvadratmetrində ekspozisiya zalı yerləşir ki, bu zaldan həm də konfrans salonu kimi istifadə olunur. Binanın 25 kvadratmetrində kitabxana fəaliyyət göstərir, 35 kvadratmetrində isə inzibati və yardımçı otaqlar yerləşir. Mərkəzin ekspozisiya zalında ümummilli liderimiz Heydər Əliyevin zəngin həyat və fəaliyyətini əks etdirən 138 fotoşəkil, 49 sənəd və 1 büst nümayiş etdirilir. Ekspozisiya zalının bir bölməsi Prezident İlham Əliyevin Lerikə tarixi səfərləri barədə məlumat verir.

Gənclər daha sonra Lerik rayon Tarix-diyarşünaslıq muzeyi ilə tanış oldular. Gənclərə Muzeyin tarixi və burada saxlanılan eksponatlar barədə məlumat verdi.

Bildirildi ki, Lerik Azərbaycanın qədim tarixə malik bölgələrindəndir. Tarix-diyarşünaslıq muzeyinin binası ümummilli liderimiz Heydər Əliyevin göstərişi ilə ötən əsrin 80-ci illərində tikilib. 5 bölmədən ibarət muzeydə 4 min eksponat nümayiş etdirilir. Onların arasında eramızdan əvvəl XIV-XII əsrlərə aid tunc xəncərlər, ox ucluqları, amuletlər və s. maddi mədəniyyət nümunələri var.

Muzeydə müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu, ümummilli lider Heydər Əliyevə həsr olunmuş xüsusi bölmə yaradılıb. Vətən uğrunda döyüşlərdə həlak olmuş lerikli şəhidlərə - beş Milli Qəhrəmana həsr olunmuş guşələr də var.

Gənclər muzeylə yaxından tanış oldular, burada saxlanılan eksponatların rayonun qədim tarixini əks etdirən nümunələr kimi qiymətli olduğunu vurğuladılar. Rayonla tanışlığı başa vuran gənclər günün ikinci yarısında “Yaradıcı gənclərin inkişafına dövlət dəstəyi” mövzusunda təlimdə iştirak etdilər. Çıxış edən YAP Gənclər Birliyi Ofisinin koordinatoru Elmar Məmmədov təlimin mövzusu və faydaları barədə məlumat verdi.

Sonra təlimin moderatoru YAP Binəqədi rayon təşkilatının baş təlimatçısı Kübra Əliyarlı yaradıcı gənclərə göstərilən dövlət qayğısından bəhs etdi. Sonda gənclərin sualları cavablandırıldı. Tanışlıq və təlimlərdən sonra gənclər arasında müxtəlif idman yarışları, yaradıcı müsabiqələr keçirildi. Günə interaktiv, intellektual, praktik oyunlarla yekun vuruldu.

Qeyd edək ki, “Yay məktəbi”nin hər bir günü gənclərin həyatında müxtəlifliyi ilə diqqət çəkir. Gənclər həmin gün çərçivəsində təşkil olunan seminarlar, diskussiyalar zamanı öz biliklərini artırır, bir-birləri ilə ünsiyyət əsasında həm dostluq əlaqələrinin qurulmasına, həm də biliklərinin mübadiləsinə nail olurlar. Gənclər üçün həm təcrübə, həm də biliklərin mübadiləsinə yardımçı olan “Yay məktəbi” davam edir.

# Generallar Bakıda görüşür: qlobal təhlükəsizlik və əməkdaşlıq imkanları

***Azərbaycan paytaxtında general T.Volters ilə general V.Gerasimov arasında aparılan danışıqlar ekspertlərin bir neçə aspektdə marağına səbəb olub. Dünyanın iki çox böyük hərbi gücünün Bakıda qlobal əhəmiyyətli məsələləri müzakirə etməsi adi hadisə deyil. Bu baxımdan ekspertlər ABŞ və Rusiyanın görüş yeri kimi məhz Bakını seçməsinin səbəbləri ilə bağlı müxtəlif analizlər aparırlar. Aydın olur ki, burada bir sıra faktorlar rol oynayır. Azərbaycan müstəqil dövlət kimi böyük nailiyyətlər əldə etməkdədir.***




Beynəlxalq aləmdə onun nüfuzu durmadan artır. Mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edən Azərbaycanın sabit ölkə və etibarlı tərəfdaş olması da dünya tərəfindən qəbul edilir. Bütün bunların fonunda Amerika və Rusiyanın mühüm məsələləri Bakıda müzakirə etmələri normal görünür. Həmin kontekstdə iki generalın Bakı görüşünün geosiyasi təsiri üzərində geniş dayanmağa ehtiyac görürük.

## Ənənə: Bakı vacib beynəlxalq məsələlərin müzakirə məkanı kimi

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Ali Komandanı general Tod Volters ilə Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun növbəti görüşünün Bakıda keçirilməsi müəyyən mənada yaxşı bir ənənənin davamıdır. Artıq dördüncü dəfədir ki, bu növ görüşlər keçirilir. Tərəflərin məhz Bakını müzakirə yeri kimi seçməsi də təsadüfi sayılmır. Bu o deməkdir ki, ABŞ və Rusiya üçün ən uyğun məkan Azərbaycandır. Səbəbi haqqında müxtəlif fikirlər deyilir. Onların hər biri əhəmiyyətlidir. Çünki söhbət müstəqil dövlət quruculuğu kursuna dünyada olan münasibətdən gedir. Şübhə yoxdur ki, Amerika və Rusiya kimi qüdrətli dövlətlər danışıqlar üçün təsadüfi yer seçməzlər. Onlar daha çox inandıqları, əmin olduqları, etibarlı saydıqları ölkədə danışıqlar apararlar.

Cənubi Qafqazda məhz Azərbaycanın müzakirə məkanı kimi seçilməsi böyük məna daşıyır. Hər şeydən öncə, Azərbaycan müstəqil və dinamik inkişaf edən, daxili sabitliyə nail olmuş bir dövlətdir. Uzun müddətdir ki, Azərbaycan regionda bu sabitlik səviyyəsinə görə digər ölkələrdən fərqlənir. Daxili sabitlik sürətli islahatlarla müşayiət olunur. Bu iki faktor Azərbaycanı Cənubi Qafqazın geosiyasi qovşağına çevirib. Bunun əlamətləri əsasən beynəlxalq layihələrdə, irimiqyaslı tədbirlərdə və davamlı inkişafda özünü göstərir.

Beynəlxalq layihələr də başlıca olaraq enerji təhlükəsizliyi, regional və qlobal əməkdaşlıq, nəqliyyat dəhlizlərinin formalaşması və mədəniyyətlərarası dialoqun təşkili ilə əlaqəlidir. Bu, faktiki olaraq, Azərbaycanı bütün istiqamətlərdə Cənubi Qafqazın lider dövləti mövqeyinə çıxarıb. Hazırda burada istənilən mövzuda yüksək səviyyəli müzakirələr təşkil etmək mümkündür.

Nüfuzlu beynəlxalq tədbirlər kimi Azərbaycan sivilizasiyalar, dinlər və mədəniyyətlər arasında dialoqun təşkili ilə bağlı çox vacib mövzularda müzakirələr təşkil edir. İndi bütün dünya Bakı Beynəlxalq Humanitar Forumundan, “Bakı prosesi”ndən və başqa yeni tədbirlərdən bəhs edir. Hər kəs bilir ki, bu möhtəşəm layihələrin və uğurla təşkil edilən tədbirlərin təşəbbüskarı Azərbaycan rəhbərliyidir. Bunlara beynəlxalq idman yarışlarının təşkilini də əlavə etmək gərəkdir. Azərbaycan hər kəsə sübut edib ki, bu növ tədbirləri də yüksək səviyyədə keçirə bilir.

Nəqliyyat dəhlizlərinin formalaşmasında Azərbaycanın oynadığı aktiv rol ayrıca mövzudur. İndi Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri reallaşır. Bu, yalnız yük daşımaq imkanı deyil, həm də mədəniyyətlərin, sivilizasiyaların dialoqunu, ünsiyyətini təşkil etmək deməkdir. Dünyanın onlarla ölkəsinin nümayəndələri bu dəhlizlər vasitəsilə təmasda olur və səmərəli fəaliyyət göstərirlər. Deməli, Azərbaycan çox sayda ölkələrin səmərəli və qarşılıqlı faydalı əməkdaşlığını ən yüksək səviyyədə təşkil edə bilir.

Bütün bunlarla yanaşı, Azərbaycan Cənubi Qafqazda əməkdaşlığın yeni formatları ilə bağlı ən çox təşəbbüs irəli sürən ölkədir. Prezident İlham Əliyevin ikitərəfli, üçtərəfli və dördtərəfli əməkdaşlıqla ilgili təklif və təşəbbüsləri artıq özünün yüksək səmərəsini göstərib. Bu baxımdan Bakının Rusiya-İran-Azərbaycan əməkdaşlıq formatını böyük uğurla reallaşdırması ekspertlərin diqqətini daha çox çəkib. Çünki tarixən Azərbaycan Rusiya və İranda imperiya dövründə onların tərkibində olub. İndi isə müstəqil dövlət kimi bu iki böyük dövlətin əməkdaşlığına yeni təkan verir. Bu mənada İlham Əliyevin əməkdaşlıq formatı təklifi son dərəcə böyük maraq doğurur və Azərbaycan dövlətinə etibarlılıq qazandırır.

## Geosiyasi kontekst: perspektivli proses

Əlbəttə, söhbət əməkdaşlıqdan düşərkən Türkiyə və Qərb istiqamətini unutmaq olmaz. Türkiyə Azərbaycana ən yaxın, qardaş dövlətdir. Onunla əməkdaşlıq avtomatik və aksiomatik bir işdir. Ancaq məsələ eyni zamanda müstəqil dövlət kimi qarşılıqlı faydalı və etibarlı əlaqələrin yaradılmasından gedir. Azərbaycan bu istiqamətdə də bir sıra müstəqil dövlətlər üçün səciyyəvi olan “böyük-kiçik qardaş” sindromunu aşmış ölkədir. İndi onun Türkiyə ilə sabit, bərabərhüquqlu, qarşılıqlı faydaya əsaslanan münasibətləri mövcuddur. Deməli, Azərbaycan özünün çox güclü qardaşı ilə belə əməkdaşlığını müstəqil dövlət kimi konstruktiv müstəvidə qura bilir. Bu baxımdan Bakının dünyanın ən inkişaf etmiş hissəsi olan Qərb dövlətləri ilə münasibətləri çox maraqlıdır. Bu istiqamətdə Azərbaycan rəhbərliyinin yüksək nailiyyətlər əldə etdiyi danılmaz faktdır. İki məqam üzərində dayanaq. Əvvəla, Azərbaycan-ABŞ əlaqələri müasir beynəlxalq hüquq və konstruktiv əməkdaşlıq şərtlərinə tam uyğun inkişaf edir. Amerika Prezidentinin İlham Əliyevə ünvanladığı məktublarda həmin məqam aydın olaraq öz ifadəsini tapıb.

Donald Tramp Azərbaycanın etibarlı, perspektivli tərəfdaş olduğunu dəfələrlə vurğulayıb, Azərbaycanın beynəlxalq enerji təhlükəsizliyinə verdiyi töhfələri ayrıca qeyd edib, əlavə olaraq, daha geniş geosiyasi məkanda bu missiyanı reallaşdıra biləcəyini ifadə edib. Bu onu göstərir ki, Vaşinqton Azərbaycanın etibarlı, sabit və perspektivli müstəqil dövlət olduğunu, beynəlxalq təhlükəsizliyə qiymətli töhfələr verdiyini etiraf edir. Bu kontekstdə Azərbaycan Prezidentinin bir fikri çox maraqlıdır. İlham Əliyev ifadə edib: “Biz beynəlxalq təhlükəsizliyin təmin edilməsi, terrorizmə qarşı mübarizə məsələlərində çoxtərəfli qaydada fəaliyyətimizi bundan sonra da qətiyyətlə davam etdirmək əzmindəyik”.

Nəhayət, Avropa İttifaqı ilə Azərbaycan arasında strateji əməkdaşlıq əlaqələri formalaşıb. Bu, təhlükəsizlik məsələlərini, beynəlxalq terrorla mübarizəni, enerji layihələrini əhatə edir. Brüssel Azərbaycana perspektivli tərəfdaş kimi baxır. Avropa İttifaqı Şurasının Prezidenti Donald Tuskun regiona son səfəri zamanı ifadə etdiyi fikirlər bunu bir daha təsdiq edir.

Beləliklə, dünyanın iki böyük hərbi gücünün vacib və aktual qlobal məsələləri Bakıda müzakirə etməyə qərar verməsi səbəbsiz deyil. Azərbaycan bütün parametrlərinə görə bu cür yüksək səviyyəli müzakirələrə uyğun bir məkandır. Amerika və Rusiya generallarının Bakıda rəsmi şəxslərlə görüşləri zamanı ifadə etdikləri fikirlər bir daha sübut edir ki, bu dövlətlərin hərbi, təhlükəsizlik və müdafiə sahələrində Bakı ilə əməkdaşlığa maraqları az deyil. Hər iki ölkə bundan sonra da Azərbaycanla həmin istiqamətdə əlaqələri gücləndirmək niyyətindədir.

T.Volterslə V.Gerasimovun Bakıda Suriya, Əfqanıstan ixtilaflarını, beynəlxalq terror, qaçaqmalçılıq və digər aktual məsələlərlə bağlı apardıqları müzakirələr göstərir ki, tərəflər hazırda bütün dünya üçün əhəmiyyətli problemlərin nəzərdən keçirilməsində maraqlıdırlar. Bakı görüşü ayrıca göstərdi ki, hələ Vaşinqton və Moskva ortaq mövqeyə gələ bilmirlər. Lakin qlobal miqyasda aktual olan və dünyanın təhlükəsizliyi üçün əhəmiyyət daşıyan məsələlərin Bakıda müzakirə edilməsi konkret məna daşıyır.

Beləliklə, ABŞ və Rusiyanın Bakıda yüksək səviyyədə müzakirələr aparması Azərbaycanın beynəlxalq nüfuzunun getdikcə daha da artdığını nümayiş etdirir. Qərb və Rusiya üçün önəmli olan hərbi-müdafiə xarakterli mövzuların Azərbaycan paytaxtında müzakirə edilməsi həm də regional münaqişələrin ədalətli həlli üçün bir şansı ifadə edir. Bu cür görüşlərdə Azərbaycanın məsələyə münasibəti haqqında daha dolğun informasiyalar alan generallar, əlbəttə, həqiqəti bilməklə daha qətiyyətli mövqe tuta bilərlər. Xüsusilə onlar digər məsələlərlə yanaşı, həm də separatizm və terrorla mübarizəni də müzakirə edirlər.

Bunlar onu göstərir ki, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi beynəlxalq nüfuzunu sürətlə yüksəldir və daha etibarlı tərəfdaş kimi qəbul edilir. Bu keyfiyyətdə Azərbaycanın müxtəlif beynəlxalq proseslərdə iştirakı daha intensiv xarakter alır. Bu prosesin yeni səviyyəyə yüksəlməsi, əlbəttə, regionda bir sıra çətinliklərin aradan qaldırılmasına yardım edəcəkdir. İki generalın Bakıdakı son görüşünə bu prizmadan baxdıqda, onun növbəti mərhələnin başlanğıcı olduğu qənaəti yaranır. Yəni ABŞ-Rusiya münasibətlərində konstruktiv bir mərhələ başlaya bilər.

***Newtimes.az***

# Azərbaycan milli maraqlara əsaslanan müstəqil siyasət həyata keçirir



**Milli Məclisin deputatı, Azərbaycanın AVRONEST PA-da nümayəndə heyətinin rəhbəri, professor Sahibə Qafarovanın yap.org.az-a müsahibəsi**

**- Sahibə xanım, ötən həftə Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Tod Volters ilə növbəti görüşü keçirildi. Belə bir mühüm görüşə yenidən məhz Bakının evsahibliyi etməsi beynəlxalq mediada da yüksək qiymətləndirildi və bu faktın Azərbaycanın qloblal təhlükəsizlikdə oynadığı mühüm rolun göstəricisi olduğu vurğulandı. Sizin bu məsələ ilə bağlı fikirlərinizi bilmək maraqlı olardı...**

- Bilirsiniz ki, Rusiya Silahlı Qüvvələrinin və NATO-nun rəsmiləri Bakıda əvvəllər də görüşüblər və müəyyən məsələlər ətrafında müzakirələr aparıblar. Bu, Azərbaycanın yüksək nüfuzunun göstəricisi olmaqla yanaşı, həm NATO, həm də Rusiyanın ölkəmizə etibar etdiyinin ifadəsidir. Dünyanın siyasi nəbzinin yenə paytaxt Bakıda vurması Azərbaycana çoxsaylı strateji dividendlər qazandırır. Ümumilikdə isə, sülh və dialoq məkanı kimi növbəti dəfə Bakının seçilməsi Azərbaycanın beynəlxalq miqyasda rolunu və nüfuzunu daha da artıran amildir. Belə mühüm görüşlərin Bakıda keçirilməsinin əsas səbəblərindən biri Azərbaycan Prezidenti İlham Əliyevin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır. Çünki sabitlik və təhlükəsizlik adası kimi xarakterizə edilən Azərbaycan regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa müstəsna töhfələr verir. Bakı həmçinin mühüm dialoq və əməkdaşlıq məkanı kimi beynəlxalq miqyasda ciddi nüfuza malikdir.

Azərbaycan tərəfindən irəli sürülən təşəbbüslər sivilizasiyalararası dialoqun inkişafına, multikultural dəyərlərin, tolerantlığın təbliğinə mühüm töhfələr verir. Azərbaycan Şərq ilə Qərb arasında körpü rolunu oynayır. Azərbaycan NATO-nun və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvü deyil, amma ABŞ, Avropa və Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir.

Azərbaycan milli maraqlara əsaslanan müstəqil siyasət yeridir, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Azərbaycan həm ikitərəfli və çoxtərəfli münasibətlərini uğurla inkişaf etdirir, həm də sivilizasiyalararası dialoqa, regional və beynəlxalq təhlükəsizliyə mühüm töhfələr verir. Başqa sözlə, Azərbaycan Cənubi Qafqazın lider dövləti kimi regionda və daha geniş coğrafiyada sabitləşdirici rol oynayır, ölkəmizin moderatorluğu, liderliyi ilə reallaşdırılan geostrateji əhəmiyyətli layihələr regional və qlobal təhlükəsizliyə, beynəlxalq əməkdaşlığın dərinləşməsinə əhəmiyyətli töhfədir. Bununla yanaşı, ölkəmiz dünyada sabitlik adası kimi tanınır, ölkəmizdə etibarlı təhlükəsizlik mühiti hökm sürür. Ona görə də paytaxt Bakı bir çox tədbirlər, görüşlər üçün məkan kimi seçilir. Xüsusilə də, qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşünün Bakıda keçirilməsi çox mühüm əhəmiyyətə malikdir.

**- Bu qəbildən olan mühüm tədbirlərdən biri - UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası da Bakıda ən yüksək səviyyədə təşkil olundu. Bu tədbirin əhəmiyyəti və UNESKO ilə Azərbaycan arasında münasibətlərin mövcud vəziyyəti barədə nə deyə bilərsiniz?**

- Azərbaycanın UNESKO ilə əlaqələri xüsusilə təqdirəlayiqdir. Respublikamızla bu təşkilat arasında münasibətlərin də əhatə dairəsi getdikcə genişlənir. Belə ki, Azərbaycan öz imkanlarını təqdim edərək UNESKO ideyalarının reallaşmasında daim fəal rol oynayır. Eyni zamanda, qurum Azərbaycan həqiqətlərinin, ələlxüsus da zəngin mədəniyyətimizin dünyada təbliğində kifayət qədər səmərəli platforma qismində çıxış edir.

Azərbaycanla UNESKO arasında uğurlu əməkdaşlıq nəticəsində İçərişəhər, Qız qalası və Şirvanşahlar Saray Kompleksi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı UNESKO-nun Ümumdünya İrs Siyahısında, həmçinin xalqımızın qeyri-maddi mədəni irsinin 13 nümunəsi UNESKO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alır. Bu mühüm hadisələr Azərbaycan xalqının ümumbəşər mədəniyyətinə verdiyi töhfənin beynəlxalq miqyasda bir daha yüksək dəyərləndirildiyinin təsdiqidir. Musiqi xəzinəmizin inciləri olan muğam və aşıq sənəti, Novruz bayramı, tar ifaçılığı sənəti də Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil olunub. Bir sözlə, bu əməkdaşlıq Azərbaycanın sərvətlərinin beynəlxalq məkanda dəyərləndirilməsində əhəmiyyətli rol oynayır.

Azərbaycanla UNESKO arasında əməkdaşlığın möhkəmlənməsindən söhbət açarkən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın müstəsna rolunu xüsusi vurğulamaq lazımdır. Onun davamlı səyləri və məqsədyönlü fəaliyyəti sayəsində Azərbaycan-UNESKO əlaqələri keyfiyyətcə yeni səviyyəyə yüksəlib. Mehriban xanım Əliyeva Azərbaycanın zəngin mədəniyyətinin qorunması, öyrənilməsi və tədqiqində xidmətlərinə görə UNESKO tərəfindən 2004-cü ilin sentyabr ayında qurumun şifahi və musiqi ənənələri sahəsində xoşməramlı səfiri adına layiq görülüb. Mehriban xanım Əliyevanın səyləri nəticəsində Azərbaycanın maddi və qeyri-maddi mədəni irs nümunələri UNESKO-nun müvafiq siyahılarında yer almaqdadır.

İyulun 7-də Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında Azərbaycanın "Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi" UNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilməsi isə Azərbaycanın UNESKO-da apardığı davamlı işin, həmçinin maddi mədəniyyət nümunələrinin qorunmasına göstərdiyi xüsusi diqqətin növbəti ifadəsidir. Bu fakt dünyanın mədəni-turistik xəritəsində Azərbaycanın mövqeyini əhəmiyyətli dərəcədə möhkəmləndirir. Bakıda keçirilən sessiyada çıxardılan qərar Azərbaycan xalqının dünya mədəniyyətinə xüsusi töhfəsinin beynəlxalq səviyyədə növbəti təsdiqidir.

**- Sahibə xanım, bir çox mütəxəssislər Azərbaycanda həyata keçirilən gender siyasətini uğurlu bir model kimi yüksək qiymətləndirirlər. Belə bir fikir ifadə olunur ki, Azərbaycanda həyata keçirilən gender siyasəti nəticəsində ölkəmizdə qadınların cəmiyyət həyatının bütün sferalarında fəal iştirakına əlverişli şərait yaradılıb. Siz Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini kimi, Azərbaycanda gender mühitini, bu istiqamətdə görülən işləri necə qiymətləndirirsiniz?**

- Bəli, Azərbaycan gender məsələlərinə böyük əhəmiyyət verən, qadın hüquqlarının qorunması istiqamətində mühüm tədbirlər həyata keçirən dövlətlərdən biridir. Azərbaycan Respublikasının qanunvericiliyi gender məsələlərinin uğurlu həllinə töhfə verir. Ölkəmizdə yaradılan əlverişli şəraitin nəticəsidir ki, bu gün müstəqil Azərbaycanın qadınları icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq-mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar. Məişət zorakılığı, erkən nikah hallarının qarşısının alınması, qadınların sosial və iqtisadi həyatda fəal iştirakının təbliği sahələrində müvafiq dövlət orqanları, vətəndaş cəmiyyəti, bir sıra beynəlxalq təşkilatlarla, eləcə də BMT-nin bir çox qurumları ilə birgə layihələr həyata keçirilib. Bu layihələr beynəlxalq miqyasda da yüksək qiymətləndirilir və ölkəmizin gender sahəsində təcrübəsi müsbət bir təcrübə kimi təqdir olunur. Elə yeri gəlmişkən, qeyd etmək istərdim ki, iyunun 7-də Parisdə Milli Assambleyada Fransa-Azərbaycan parlamentlərarası dostluq qrupunun təşkilatçılığı ilə keçirilən Azərbaycanda qadınlara səsvermə hüququ verilməsinin 100 illiyinə həsr olunmuş "Qadın hüquqları: Şərq və Qərbin qovuşuğunda Azərbaycan nümunəsi" adlı konfransda ölkəmizin 100 il əvvəl dinindən, cinsindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara eyni hüquqlar verən, qadınların səsvermə hüququnu təmin edən ilk dünyəvi müsəlman dövləti olduğu vurğulandı, qadın hüquqları sahəsində Azərbaycanın digər ölkələrə nümunə olduğu bir daha qeyd olundu.

Qeyd etməliyəm ki, gender məsələlərinin həlli, cinsi ayrı-seçkiliyin bütün formalarına qarşı mübarizənin gücləndirilməsi BMT-nin 2030-cu il Dayanıqlı İnkişaf Məqsədlərindın biridir. Qadınların ictimai həyata daha çox inteqrasiya olunduğu bir zamanda zərif cinsin nümayəndələrinə geniş hüquqların verilməsi, onların bütün sahələrdə bərabər təmsilçiliklərinin təmini, fəaliyyət sferalarının təhsil, səhiyyə kimi ənənəvi istiqamətlərdən daha da genişləndirilməsi, iqtisadi, sosial sahələrdə, hətta siyasi və dövlət idarəetməsində qadınların potensialından səmərəli faydalanması kimi hədəflər milli dövlətlərin inkişaf strategiyasında mühüm prioritetlər kimi çıxış edir.

**- Yeri gəlmişkən, bir müddət əvvəl Yaponiyanın paytaxtı Tokioda Qadın Siyasi Liderlərin növbəti Sammiti keçirildi. Siz bu sammitdə ölkəmizi təmsil edirdiniz. Sammitdə əsasən müzakirə olunan mövzular sırasında "2030-cu il Dayanıqlı İnkişaf Məqsədləri"ndən biri kimi gender məsələlərinin uğurlu həlli olub. İstərdik, həm bu, həm də ümumiyyətlə sammit barədə məlumat verəsiniz.**

- İyunun 25-27-də Yaponiyanın paytaxtı Tokioda Qadın Siyasi Liderlərin növbəti Sammiti keçirilib. Toplantıda qadınların ictimai-siyasi həyatda rolu, onların dünyada baş verən proseslərə təsir imkanları, sülhün, əmin-amanlığın, sabitliyin bərqərar olmasında fəallığının artırılması, qadın siyasi xadimlərin əməkdaşlığının genişləndirilməsi məsələləri müzakirə olunub. Tədbir Yaponiya Nümayəndələr Palatası və Qadın Siyasi Liderləri Təşkilatı tərəfindən keçirilib.

İyunun 26-da konfrans çərçivəsində qadın sahibkarlığının inkişafı, qadınların iqtisadi sahədə fəaliyyətinin genişləndirilməsi mövzusunda keçirilən panel çıxışlarının müzakirələrində çıxış edərək bildirdim ki, Azərbaycan qadınları ictimai-siyasi həyatda olduğu kimi, sahibkarlığın inkişafına da öz töhfələrini verir. Azərbaycan Hökuməti ölkəmizdə qadın sahibkarlığının inkişaf etdirilməsinə daim dəstək göstərir. Uşaq bağçalarının, istehsal müəssisələrinin və digər biznes təşkilatlarının sayı artırılır, qadınlara fəaliyyətlərini genişləndirmək üçün güzəştli şərtlərlə kreditlər verilir. Eyni zamanda, qadınların fəaliyyətinin təşviq edilməsi üçün genişmiqyaslı tədbirlər keçirilir, konfranslar təşkil olunur.

Tədbirdə müxtəlif ölkələri təmsil edən nümayəndələr də öz ölkələri barədə təqdimat ediblər. Mən də ölkəmizdə qadın hüquqlarının qorunması, gender məsələlərinin uğurlu həlli istiqamətində görülən tədbirlər barədə geniş məlumat verdim. Qeyd etdim ki, bu gün Azərbaycanın qadınları icra hakimiyyəti orqanlarında, bələdiyyələrdə, təhsil, səhiyyə sahələrində, biznes strukturlarında, kənd təsərrüfatında, orduda, idmanda, hüquq-mühafizə orqanlarında, İKT sahəsində kişilərlə bərabər vəzifələrdə təmsil olunurlar.

Beynəlxalq tədbirdə eyni zamanda, münaqişələrdən, onun yaratdığı miqrant probleminin nəticələri haqqında məlumat verdim. Bildirdim ki, Ermənistanın işğalçılıq siyasəti nəticəsində minlərlə azərbaycanlı, eləcə də qadınlar və uşaqlarımız öldürülüb, bir milyondan çox vətəndaşımız öz doğma torpaqlarından və evlərindən didərgin salınıb, onlar qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olublar. Azərbaycan dövləti qaçqın və köçkünlərin sosial müdafiəsinin gücləndirilməsi, onların həyat şəraitlərinin yaxşılaşdırılması istiqamətində çox genişmiqyaslı tədbirlər həyata keçirib. Ancaq buna baxmayaraq, bu insanlar qaçqın, köçkün həyatı yaşayırlar. Təəssüf ki, bu, onların evlərinə qayıtmaq və ləyaqətlə yaşamaq hüququ təmin olunana qədər davam edəcək. Mövcud problemlərdən biri reabilitasiya və inteqrasiya məsələləridir. Belə ki, qadın qaçqın və məcburi köçkünlərin münaqişə dövründə yaşadıqları zorakılıqların yaratdığı ciddi psixoloji travmalar sonrakı dövrdə onların həyatlarında mənfi fəsadlara yol açır. Bu, onların cəmiyyətə inteqrasiyasında da böyük çətinliklər yaradır.

Bu kimi problemlərin həlli, ilk növbədə, münaqişələrin və işğal faktının aradan qaldırılmasıdır. Azərbaycan bu məsələdə beynəlxalq ictimaiyyətin səylərini təqdir edir, bununla belə problemlərə ədalətli, beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində yanaşmanın vacibliyini vurğulayır.

Qeyd edim ki, məndən əvvəl tədbirdə Ermənistan təmsilçisi çıxış etdi. O, ölkəsinin işğalçılıq siyasətini ört basdır etmək üçün faktları təhrif etdi, Ermənistanla bağlı uydurma fikirlər səsləndirdi. Çıxışımda erməni siyasətçinin iddialarına da cavab verərək bu ölkənin bütün beynəlxalq hüququn prinsiplərini pozaraq işğalçılıq siyasətini davam etdirdiyini, işğal faktının aradan qaldırılması ilə bağlı beynəlxalq çağırışlara, BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının dərhal və qeyd-şərtsiz azad olunmasına dair 4 qətnaməsi və digər təşkilatlar tərəfindən qəbul olunan sənədlərə məhəl qoymadığını xatırladaraq bildirdim ki, Ermənistan regional təhlükəsizliyə ciddi təhdid yaradan monoetnik bir ölkədir.

# Azərbaycan milli mətbuatının yaranmasından 144 il ötür

## İlham Əliyev: "Bütövlükdə, Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyinə bağlıdır"



***Azərbaycan milli mətbuatının 144-cü ildönümü ərəfəsindəyik. Milli mətbuatın ölkəmizin ictimai-siyasi və mədəni həyatında yerini, vətəndaş cəmiyyətinin inkişafında, milli-mənəvi dəyərlərin təbliğində, gənc nəslin vətənpərvərlik tərbiyəsi sahəsində rolunu nəzərə alan dövlət başçısı İlham Əliyevin 2015-ci il iyunun 2-də imzaladığı Sərəncama əsasən, keçirilən tədbirlər, bir daha ölkəmizdə mətbuata verilən yüksək qiymətin növbəti təzahürüdür.***

Məhz 140 il bundan əvvəl böyük maarifçi-publisist, ictimai xadim Həsən bəy Zərdabinin misilsiz səyləri ilə işıq üzü görmüş ilk milli qəzetimiz "Əkinçi" xalqa söz və qələmlə xidmət etməyin mükəmməl nümunəsini göstərmişdir. "Əkinçi" qəzeti maarifçilik ideyalarını özünə yenilməz bayraq etmiş ilk Azərbaycan mətbuat nümunəsi idi. Bu da səbəbsiz deyil. Belə ki, XIX əsrdə Azərbaycanda maarifçilik hərəkatının və maarifçilik ideya cərəyanının aparıcı qüvvələri, necə deyərlər, cərəyanın təməl daşını qoyanlar, məhz Mirzə Fətəli Axundzadə və Həsən bəy Zərdabi idi. Zərdabinin nəzərində maarifçilik cəmiyyətin tərəqqiyə doğru inkişafının, cəmiyyəti bütün bəlalardan xilas etməyin yeganə vasitəsi idi. O, anadilli mətbuatı milli mövcudluğu qoruyub-saxlamaq yolunda bir vasitə kimi görürdü.

Həsən bəy Zərdabinin yaratdığı və redaktoru olduğu "Əkinçi" qəzeti ilə əsası qoyulan Azərbaycan jurnalistikası müxtəlif dövrlərdə ağır sınaqlara məruz qaldı, amma milli dilin yaşaması naminə hər çətinliyə dözdü və tutduğu şərəfli yoldan dönmədi.

"Heç olmaz ki, doğru söz yerdə qalsın" deyən Həsən bəy Zərdabi el-obanın zülmət içində boğulduğu bir vaxtda ona əl uzatmaq, onun yolunu elm, maarif çırağı ilə işıqlandırmaq, doğru yol göstərmək üçün "Əkinçi"ni yaratdı. "Əkinçi" Azərbaycan dilində əsl milli demokratik və xalq mətbuatının ilk təməl daşını qoydu. 1875-ci il iyulun 22-dən 1877-ci ilin sentyabrınadək cəmi 56 nömrəsi çıxan "Əkinçi" millətin aynası oldu, Azərbaycan jurnalistikasının bayraqdarına çevrildi.

Sonrakı illərdə görkəmli ziyalılar tərəfindən nəşr edilən "Ziya", "Kəşkül", "Şərqi-rus", "İrşad", "Molla Nəsrəddin" kimi qəzet və jurnallar "Əkinçi"nin ənənələrini davam etdirdi.

Ötən dövrdə zəngin və şərəfli yol keçən Azərbaycan mətbuatı indi özünün yüksəliş mərhələsini yaşayır.

### Heydər Əliyev mətbuatın hamisi

Şübhəsiz ki, mətbuatımıza dövlət qayğısı, məhz 1970-80-ci illərdə özünün yüksək səviyyəsinə çatmışdı. Bu tendensiya Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə ali siyasi hakimiyyətə gəldiyi 1993-cü ildən sonra da davam etdi. 1995-ci il noyabrın 12-də - müstəqil dövlətimiz özünün ilk Konstitusiyasını qəbul etdikdən, yeni parlament seçildikdən sonra Ulu Öndər ölkədə teleradio yayımının keyfiyyətinin yaxşılaşdırılması məqsədilə yeni, müasir avadanlıqların alınmasına və quraşdırılmasına göstəriş verdi. Qafqazda, ilk olaraq, Azərbaycanda sovet dönəmindən qalan teleötürücü qurğular dəyişdirildi, kütləvi informasiya vasitələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, söz, məlumat və fikir azadlığının təmin edilməsi sahəsində mühüm tədbirlər həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin 6 avqust 1998-ci il tarixli "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı ilə kütləvi informasiya vasitələri üzərində senzura ləğv olundu, bu sahənin inkişafını stimullaşdıran bir sıra zəruri tədbirlər həyata keçirildi. Bununla da, ölkəmizdə demokratik proseslərin inkişafına xüsusi önəm verildiyi bir daha təsdiqləndi. Ulu Öndər 27 mart 2000-ci ildə imzalanan "Azərbaycanda milli mətbuatın yaradılmasının 125 illiyi" haqqında Fərmanla ölkəmizdə demokratik mətbuatın yaradılmasının 125 illiyi təntənəli şəkildə qeyd olundu. KİV-lərlə əlaqəni kəsməyən, daim jurnalistlərin yanında olan, mətbuatla işləmək mədəniyyəti nümunəsini göstərən Ulu Öndər Heydər Əliyev 2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərlərini qəbul etdi, mətbuatın problemlərini müzakirə etdi. Həmin görüşdən sonra bəzi problemlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi, onlara kreditlər ayrıldı, mətbəələrə olan borcları "donduruldu". Dövlət başçısının mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi. Ulu Öndər Heydər Əliyev 2002-ci il martın 22-də "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi tərəfindən "Jurnalistlərin dostu" mükafatına layiq görüldü.

### Müstəqil mətbuatın inkişafına xidmət edən LİDER

Ötən 16 ildə Azərbaycanda cəmiyyət həyatının bütün sahələri böyük inkişaf yolu keçib. Ölkəmiz demokratik inkişaf baxımından mühüm uğurlara imza atıb. Təbii ki, bu uğurlar mətbuatda da özünü göstərib. Azad sözə böyük önəm verən, bu sahədə Ulu Öndərin qoyduğu ənənələri davam etdirən Prezident İlham Əliyev mütəmadi olaraq mətbuat nümayəndələri ilə görüşür, onları dinləyir, KİV-in ölkənin həyatındakı rolu ilə bağlı tövsiyələr verir.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında KİV-lərinin inkişafına dövlət dəstəyi Konsepsiyasının" təsdiq edilməsi, bir il sonra, 3 aprel 2009-cu ildə Prezident yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə atılan mühüm addımlar idi.

Dövlət başçısı milli mətbuatın yubileyi ilə bağlı ilk Sərəncamını 20 iyun 2005-ci ildə imzaladı, mətbuatımızın 130 illik yubileyi bütün ölkə miqyasında qeyd olundu. Prezidentin qərarı ilə 2005-ci ildə 30 qəzet redaksiyasının hər birinə 2 min manat, 2008-ci ildə 38 mətbuat orqanının hər birinə 5 min manat, 2009-cu ildə 39 qəzet redaksiyasının hərəsinə 10 min manat həcmində birdəfəlik yardım göstərilib. Ümumilikdə, 2005-2008-ci illərdə 300 nəfərə yaxın KİV əməkdaşı orden və medallarla təltif edilib, fəxri adlar alıb, Prezident təqaüdünə layiq görülüb.

Milli mətbuatımızın 135 illik yubileyi də böyük təntənə ilə qeyd edilib. Dövlət başçısının 21 iyul 2010-cu il tarixli Sərəncamı ilə 38 nəfər "Tərəqqi" medalı, 38 nəfər "Əməkdar jurnalist", 15 nəfər Əməkdar Mədəniyyət işçisi, bir nəfər Əməkdar mühəndis fəxri adına layiq görülüb. Üstəlik, 40 gündəlik qəzetin hər birinə 20 min manat, 8 informasiya agentliyinin hər birinə 10 min manat yardım göstərilib. Mətbuat Şurası üçün yeni binanın ayrılması, onun müasir avadanlıqla təmin edilməsi, Prezident İlham Əliyevin binanın açılışında iştirakı, jurnalistlər qar-

# Azərbaycan milli mətbuatının yaranmasından 144 il ötür

## İlham Əliyev: "Bütövlükdə, Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyinə bağlıdır"



şısında çıxışı, bir daha bu həqiqəti təsdiq edib ki, azad mətbuatın inkişafı dövlət siyasətində prioritetdir. Prezident İlham Əliyevin "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Sərəncamı isə jurnalistlərə yeni əhvalı-ruhiyyə gətirib, böyük rəğbətlə qarşılanıb. Mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə 2010-cu il Prezidentin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsaitin ayrılması mətbuat tariximizdə mühüm hadisə kimi dəyərləndirilib.



Bütün bunlar isə jurnalistləri növbəti dəfə də öz dostlarını seçməkdə çətinə salmayıb. 2010-cu il dekabrın 1-dən 20-dək "RUH" Azərbaycan Jurnalistləri Müdafiə Komitəsi 2010-cu ildə "Jurnalistlərin dostu" mükafatı qalibinin müəyyənləşdirilməsi ilə bağlı KİV və jurnalist təşkilatları arasında keçirdiyi sorğunun nəticələrinə əsasən, Prezident İlham Əliyev kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi sahəsindəki xidmətlərinə görə "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. Sorğuda iştirak edən KİV-lərin 81%-i Dövlət başçısını "Jurnalistlərin dostu" mükafatına ən layiqli namizəd hesab edib.

Azərbaycan Prezidenti İlham Əliyevin 22 iyul 2010-cu il tarixli "Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri haqqında" Sərəncamına uyğun olaraq mətbuat işçilərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və onlar üçün yaşayış evlərinin tikilməsi məqsədilə Azərbaycan Prezidentinin Ehtiyat Fondundan Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 5 milyon manat vəsait ayrıldı. Tam əminliklə demək olar ki, ən inkişaf etmiş demokratik ölkələrdə belə mətbuata, bu sahədə çalışanlara analoji diqqət və qayğıya təsadüf oluna bilməz. Haqlı olaraq bildirilir ki, mətbuat nümayəndələrinin sosial müdafiəsinin gücləndirilməsi dünyada analoqu olmayan addımdır. Qısa müddətdə inşa olunan binanın istifadəyə verilməsi mərasimində iştirak edərək jurnalistləri təbrik edib, sevincinə şərik olan Prezident İlham Əliyev bildirdi ki, ölkəmizdə demokratik cəmiyyətin formalaşmasında jurnalistikanın çox böyük rolu və xidmətləri vardır: "Bütövlükdə, Azərbaycan jurnalistikası öz dövlətinə, xalqına, dövlətçiliyə bağlıdır. Siyasi baxışlardan asılı olmayaraq, əksər hallarda dövlətin maraqları üstünlük təşkil edir. Dövlət isə öz tərəfindən jurnalistlərin fəaliyyətinə dəstəyini əsirgəməyəcək. Azərbaycanda azad mətbuatın davam etməsinə öz səylərini göstərəcəkdir. Beləliklə, bu sahə Azərbaycanda ən yüksək zirvələrə çatacaqdır."

2017-ci il iyulun 20-də isə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş ikinci binada Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimində iştirak etdi, dövlətimizin başçısı, həmçinin, üçüncü binanın təməlini qoydu. Həmin gün Azərbaycan Prezidentinin Sərəncamı ilə üçüncü binanın tikintisi üçün 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan 5 milyon manat ayrıldı. Dövlətimizin başçısının daha bir Sərəncamı ilə Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə birdəfəlik maliyyə yardımı ayrıldı. Bütün bunların nəticəsidir ki, Prezident İlham Əliyev 2017-ci ildə də "Jurnalistlərin dostu" mükafatına layiq görülüb. Dövlətimizin başçısının mətbuata qayğısının daha bir təzahürü Azərbaycanda nəşr olunan qəzetlərə maliyyə yardımının ayrılması haqqında Sərəncam imzalamasıdır. Bütün bunlar göstərir ki, Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafı, jurnalistlərin sosial şəraitinin yaxşılaşdırılması hər zaman Prezident İlham Əliyevin diqqət mərkəzindədir. Lakin bu uğurlara hələ də kölgə salmağa çalışan anti-Azərbaycan dairələr yenə də böhtanlarından qalmırlar. Ancaq həqiqət göz qabağındadır və bu qüvvələr nə qədər cəhd göstərsələr də, bütün planları iflasa məhkumdur. Çünki bu gün ölkəmizdə bütün sahələrdə həyata keçirilən uğurlu siyasətlə yanaşı, milli təəssübkeşlikdən çıxış edən, dövlətçiliyə və xalqa xidməti rəhbər tutan Azərbaycan mətbuatı onların qarşısında sarsılmaz sipərdir.

Beləliklə, bütün bunlar bir daha təsdiqləyir ki, Azərbaycan hakimiyyəti ölkədə söz və mətbuat azadlığının başlıca təminatçısıdır və bu sahədə həyata keçirilən islahatları demokratikləşmə prosesinin mühüm tərkib hissəsi kimi dəyərləndirir.

**RƏFİQƏ KAMALQIZI**

# Dünyada bənzəri olmayan Naftalan nefti turistlərin diqqətini cəlb edir

***Son illər respublikamızda turizm sahəsində əldə olunan nailiyyətlər dövlət siyasətinin uğurla həyata keçirilməsi zəminində baş verir. Ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində, məqsədyönlü işlər görülməkdədir. Görülən kompleks işlərin nəticəsi olaraq, ölkəyə gələn turistlərin sayı ilbəil artır, ölkədə fəaliyyət göstərən turizm şirkətləri şəbəkəsi genişlənir.***







Xarici dövlətlərdə Azərbaycanın müxtəlif və zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış olurlar. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycanda müalicəvi-sağlamlıq turizmi turistləri ölkəmizə daha çox cəlb edir. Ölkədə müalicə-sağlamlıq turizminin inkişafı üçün, təbii ehtiyatlar baxımından, hər şey var. Naxçıvanın duz mağaraları, Abşeron göllərinin müalicəvi palçıqları və suları, Lənkəranın və Gədəbəyin mineral suları. Azərbaycanın ərazisi planetimizin palçıq vulkanizminin inkişaf etdiyi unikal və klassik regionudur. Məlum olduğu kimi, Yer kürəsində olan 600-dən çox palçıq vulkanlarından 300-dən artığı Şərqi Azərbaycanın quru hissəsində və ona birləşən Xəzərin akvatoriyasında yerləşir. Təsadüfi deyil ki, Azərbaycan palçıq vulkanlarının vətəni sayılır. Palçıq vulkanları, əsasən, Abşeron yarımadasında, Şamaxı-Qobustan, Cənub-Şərqi Şirvan və Bakı arxipelağında yerləşir. Yalnız Qobustanda 100-dən çox palçıq vulkanı var. Müasir dövrümüzdə dünya təcrübəsində palçıq vulkanları yerləşən, möhtəşəm və əsrarəngiz görünüşə malik ərazilərə turistləri cəlb etmək üçün turlar təşkil edilir, müalicəvi əhəmiyyətli kurortlar salınır. Bu ölkələr rekreasiya əhəmiyyətli resurslarından bacarıqla istifadə edərək, milyonlarla gəlir əldə edirlər. Təkcə dünyada kurort zonası kimi tanınan Krıma diqqət etsək, görərik ki, bu məkanda 240-dan artıq müalicəvi kurortlar fəaliyyətdədir ki, hər il yüzlərlə insan müalicə olunmaq məqsədi ilə buraya üz tuturlar. Azərbaycanın da təbii imkanları və kurort zonaları ölkənin turizm bazasına lazımi qədər gəlir gətirmək imkanındadır. Ölkəmizin turizm imkanları dünya mətbuatının diqqətindən kənarda qalmır.

Bu günlərdə Ukraynanın populyar "5 kanal" Televiziyası Azərbaycan haqqında növbəti reportajını yayımlayıb. Reportajda dünyada bənzəri olmayan bir müalicə üsuluna malik Naftalan neftindən danışılıb. Naftalan şəhərinin turizm sahəsində geniş təcrübəsi və dünyada bənzəri olmayan bu neftlə müalicə üsulları var. Bakının 320 kilometrliyində yerləşən Naftalandakı bu möcüzəli yağın dəri xəstəlikləri, revmatizm, qan dövranı və s. müalicəsi üçün şəfa mənbəyidir.

Burada təyin edilən müalicə müddətində xəstələr hər gün 10 dəqiqə neft vannası qəbul edirlər. Bu vannalar bir çox xroniki xəstəliklərin müalicəsində də müsbət təsirə malikdir. Həqiqətən də, təbiətdə analoqu olmayan bu neftdən 70-dən çox xəstəliyin müalicəsində istifadə olunur. Keçmiş SSRİ dönəmində Naftalan İttifaqın məşhur kurortları arasında müalicə-sağlamlıq əmsalının yüksəkliyi ilə ön sırada olub.

Reportajda, həmçinin, Naftalanda xarici turistlərdən alınan müsahibələrdə onun üstünlüyü barədə tamaşaçılara geniş məlumat verilir. Naftalanda yaradılan şəraitə heyran olan aparıcı Nadya Baziv insanların qonaqpərvərliyini xüsusi vurğulayıb.

Bütün bunlar göstərir ki, Azərbaycanda yüksək iqtisadi, sosial və ekoloji tələblərə cavab verən müasir turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişlər bu gün ölkəmizi dünyada tanıda bilib.

***Zümrüd BAYRAMOVA***

# "Paşinyan özü də bilmir ki, bu vəziyyətdən necə çıxsın"

***"Azərbaycan ordusu güclüdür, öz mövqeyindən dönmür və Azərbaycanın Ali Baş Komandanı Azərbaycanın ərazi bütövlüyünü prioritet kimi irəli sürür. Təbii ki, işğalçı ölkə də bunu görür. Azərbaycan Prezident hər zaman qeyd edib ki, "Biz ikinci bir erməni dövlətinin yaranmasına şərait yaratmayacayıq". Bütün bunlar Ermənistan baş naziri Nikol Paşinyanı qorxudur. Çünki Paşinyan hakimiyyətə gəlməmişdən öncə bəyan etmişdi ki, o Qarabağ məsələsini Ermənistanın xeyrinə həll edəcək". Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.***



"Amma Paşinyan hakimiyyətə gələndən sonra gördü ki, heç də bunun küçələrdə danışdığı ilə reallıq üst-üstə düşmür. Ona görə də Ermənistan son zamanlar cəbhə xəttində təxribatlara əl atmağa başlayıb. Onlar həm dünyanın müxtəlif yerlərində olan lobbiləri vasitəsilə Azərbaycan dövlətini, Prezidentimizi şərləmək yolunu tuturlar, həm də Azərbaycan xalqına qarşı bu cür məsələlərdə ciddi fəallıq göstərirlər. Azərbaycanda şəhidlərin verilməsi isə heç də təsadüfi deyil. Çünki Ermənistanda gərginlik pik həddindədir. Mən Ermənistandan başqa təxribatlar da gözləyirəm. Onlar Azərbaycanı çox qarışdırmağa çalışırlar və hələlik buna nail ola bilmirlər. Nail ola bilmədiklərinə görə də onlar daha da azğınlaşırlar və quduzlaşırlar. Əslində bu Ermənistanda baş verən istefalar silsiləsindən sonra Paşinyanın aqoniyasıdır. Paşinyan özü də bilmir ki, necə etsin ki, bu vəziyyətdən çıxsın. Həm "Qarabağ klanı" ilə qarşıdurmalar, həm Paşinyan Rusiya qarşıdurması, həm Paşinyanın Avropaya yaxınlaşmaq istəyinin kifayət qədər uğurlu olmaması, həm də Azərbaycan Prezidentinin yürütdüyü siyasət və s. hamısı Paşinyanı kifayət qədər gərginliyə salıb"-deyə, C.Nuriyev fikrini tamamlayıb.

## Azərbaycanda fərdi sahibkarların sayı 880 mini ötüb



İyulun 1-nə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 880 mini keçib. Dövlət Statistika Komitəsinin məlumatında deyilir ki, hesabat dövründə hər 6 fərdi sahibkardan 5-i "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Digər sahələrdə xidmətlərin göstərilməsi" və "Nəqliyyat və anbar təsərrüfatı" sahələri üzrə qeydiyyatdan keçib.

Sahibkarlıqla məşğul olmaq niyyətində olan fərdi sahibkarların əsas hissəsi Bakıda (30,4 faiz), Aran (20,4 faiz), Gəncə-Qazax (13,6 faiz) və Lənkəran (9,9 faiz) iqtisadi rayonlarında qeydiyyata alınıb. Fərdi sahibkarların 78,4 faizini kişilər, 21,6 faizini isə qadınlar təşkil edib.

## Altı ayda nəqliyyat vasitələri ilə 112,1 milyon ton yük daşınıb



Yanvar-iyun aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən müəssisələr və fiziki şəxslər tərəfindən 112,1 milyon ton yük daşınıb. Keçən ilin müvafiq dövrü ilə müqayisədə bu göstərici 1,6 faiz çoxdur. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yüklərin 64,5 faizi avtomobil, 6,2 faizi dəmir yolu, 2,7 faizi dəniz, 0,1 faizi isə hava nəqliyyatı ilə daşınıb.

## Azərbaycan 5 ayda 1 milyard dollarlıq təbii qaz ixrac edib



SOCAR və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) məlumatlarına əsasən, 5 ayda Azərbaycandan 5 milyard 257,7 milyon kubmetr təbii qaz ixrac olunub. Yanvar-may aylarında ixrac olunan təbii qazın dəyəri isə 1 milyard 32 milyon 806 min ABŞ dolları təşkil edib. Bu barədə AZƏRTAC-a Dövlət Statistika Komitəsindən bildirilib.

# Mübariz Əhmədoğlu: “Bir qrup ABŞ konqresmeni üçün Ermənistanın marağı ABŞ-ın dövlət maraqlarından üstündür”

***“ABŞ Konqresinin Dağlıq Qarabağ mövzusundakı qətnamələri qərəzlilik, savadsızlıq və məlumatsızlıqdan irəli gələn cəfəng iddialarla xarakterizə olunur; Guya Azərbaycan təkcə Ermənistanı deyil, Gürcüstanı da blokadaya alıb. Bu gün və o zaman da, bəlli idi ki, Azərbaycanın Gürcüstanı blokadaya alması öz-özünü blokadaya alması anlamındadır”. Bunu Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin direktoru, politoloq Mübariz Əhmədoğlu bildirib.***



M.Əhmədoğlu, vurğulayıb ki, guya azərbaycanlılar Dağlıq Qarabağda təkcə erməniləri deyil, yəhudiləri də qırırlar: “O zaman bu tezisin müəllifi olan konqresmenlər sonradan bircə nəfər də yəhudinin Azərbaycan hərbçisi tərəfindən öldürülməsi ilə bağlı faktlara rast gəlmədilər. Çünki Dağlıq Qarabağda yəhudi yaşamayıb. Dağlıq Qarabağ münaqişəsində yəhudilər öldü, amma bu Azərbaycan Respublikasının vətəndaşı olan yəhudilərin Azərbaycan torpağı uğrunda apardığı mübarizə nəticəsində olub. Başqa sözlə, ermənilər Azərbaycan Respublikasının vətəndaşı olan yəhudiləri öldürüblər”.

Politoloq “Azadlığa dəstək aktına” “907-ci əlavə” ilə də bağlı aydınlıq gətirib: “”Azadlığa dəstək aktına” “907-ci əlavə” də konqresin ABŞ-ın milli maraqlarını inkar etməsinin nümunəsidir. Həm Klinton, həm də Buş administrasiyaları bu düzəlişin kəskin əleyhinə idilər. İlk imkan düşən kimi Ağ Ev bu “düzəliş”in təsirini dayandırdı”.

M.Əhmədoğlu ABŞ prezidenti Donald Trampın Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində mövqeyinin də bəlli olduğunu söyləyib: “Belə olan halda, konqresmenlərin məlumatsızlığı təkcə siyasi qərəzin hesabına deyil. ABŞ konqresmenləri bilirlər ki, SSRİ dağılarkən keçmiş sovet respublikaları “uti posidises” proseduru ilə BMT-yə üzv qəbul edildilər. Yəni Dağlıq Qarabağ SSRİ vaxtı Azərbaycan SSR-nin tərkib hissəsi idi, o, avtomatik olaraq, müstəqil Azərbaycan Respublikasının tərkib hissəsidir. BMT başqa variant ortalığa qoymayıb”.

Poliotloqun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyanın hakimiyyətə gəlməsindən istifadə edərək, konqresmenlər də öz şəxsi maraqlarını təmin etmək üçün erməni təşkilatlarının təkliflərinə dəstək verdilər: “Ancaq konqresmenlər unutdular ki, ABŞ prezidentinin Milli Təhlükəsizlik Məsələləri üzrə müşaviri C.Bolton regionda olarkən, ABŞ-dan silah almağı təklif etdi. Frenk Pallone və yaxud digər konqresmenlər bunu bilmirlərsə, deməli, savadsızdırlar. Savadsızdırlarsa konqresin adına və fəaliyyətinə ləkə gətirirlər. Yox əgər bilə-bilə Dağlıq Qarabağa səfərlərə qoyulan maneələri aradan qaldırmağı tələb edirlərsə, deməli, artıq özlərinin şəxsi maraqlarını ABŞ-ın dövlət marağından üstün tuturlar”.

M.Əhmədoğlu, onu da vurğulayıb ki, Azərbaycan heç vaxt Dağlıq Qarabağa edilən səfərlərə qadağa qoymayıb: “Azərbaycan Dağlıq Qarabağa edilən səfərlərin rəsmi Bakının icazəsi ilə və yaratdığı şərait əsasında baş tutmasına çalışır. Rəsmi Bakı beynəlxalq hüququ müdafiə edir. Hər halda, Frenk Pallone və digər konqresmenlərin atdığı addımlar sonda ABŞ konqresinin nüfuzdan düşməsinə səbəb olacaq. Mübariz Əhmədoğlu: ABŞ-ın ermənipərəst konqresmenləri “demokratiya adından quldura” çevriliblər”.

**R.HÜSEYNOVA**

# Azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının yeni dərs ilinə aid tədris planı təsdiqlənib



Təhsil naziri Ceyhun Bayramovun əmri ilə ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqları üçün təşkil edilən məktəbəhazırlıq qruplarının 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair “Qeydlər” təsdiqlənib.

AZƏRTAC xəbər verir ki, əmr Azərbaycan Respublikasının ümumtəhsil məktəblərində azsaylı xalqların uşaqlarından ibarət məktəbəhazırlıq qruplarında təhsil prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə imzalanıb. Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunub. Azsaylı xalqların uşaqları üçün məktəbəhazırlıq qruplarının 2019-2020-ci dərs ilinə aid tədris (məşğələ) planı və tədris (məşğələ) planına dair “Qeydlər”lə aşağıdakı linkdən tanış olmaq mümkündür:

http://edu.gov.az/upload/file/emre-elave/2019/07/12_07_19-F-443-sayli-emre-elave.pdf

# “Eurovision-2020” mahnı müsabiqəsi hansı şəhərdə keçiriləcək?




“Eurovision-2020” mahnı müsabiqəsinin keçirilməsi üzrə mübarizənin sonunda iki namizəd şəhər qalıb. Niderlandın NL portalı xəbər verir ki, bu şəhərlər Rotterdam və Maastrixtdir. Təşkilatçıların verdikləri məlumata görə, bu iki şəhərin müraciətləri onlar üçün daha uyğun hesab edilib. Niderlandın digər şəhərləri - Utrext, Hertogenbos, Arnem bu mübarizəni tərk ediblər.

Mahnı müsabiqəsinin icraçı prodüseri Sitse Bakker bildirib ki, hər iki şəhər televiziya translyasiyalarının və ümumilikdə tədbirin təşkili üçün yaxşı konsert zallarına malikdirlər. Rotterdamın qalib gələcəyi təqdirdə “Eurovision-2020” mahnı müsabiqəsi Ahoy konsert zalında keçiriləcək. Maastrixt isə bu tədbiri MESS konsert zalında keçirmək niyyətindədir.

Xatırladaq ki, Niderland 1956-cı ildə keçirilən birinci “Eurovision” müsabiqəsinin iştirakçısı olmuş yeddi ölkədən biridir. Bu ölkədə mahnı müsabiqəsi sonuncu dəfə 1975-ci ildə keçirilib.

# “İxrac olunan kənd təsərrüfatı məhsullarının geri qaytarılması barədə yayılan məlumatlar həqiqəti əks etdirmir”



Son günlər bəzi kütləvi informasiya vasitələrində və sosial şəbəkələrdə Azərbaycandan Rusiyaya ixrac olunan 118 ton bitki məhsullarının geri qaytarılması barədə informasiyalar dolaşır. Bu, nə dərəcədə doğrudur?

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli bu barədə AZƏRTAC-a deyib: “Yayılan məlumatlar qətiyyən həqiqəti əks etdirmir. Qeyd etmək lazımdır ki, iyulun 1-dən Agentliyimiz tərəfindən Azərbaycandan ixrac olunan məhsullar barədə ətraflı məlumatlar yayımlanır. Bu il yanvarın 1-dən indiyədək təqribən 319 min 764 ton kənd təsərrüfatı məhsulları ixrac olunub və onlardan cəmi 5 nəqliyyat vasitəsi geri qaytarılıb. Geri qaytarılanlar pomidor, gilas və tütün məhsullarıdır. Bu, ixrac olunan məhsulların cəmi 0,03 faizini təşkil edir.

Nəqliyyat vasitələrindən 2-i sənədləşmədə olan problemlər, 3 isə kənd təsərrüfatı məhsullarının zərərvericilərlə yoluxması ilə əlaqədar geri qaytarılıb. Həmin məhsulların heç birinin toksikoloji göstəricilərində nöqsanlar aşkar edilməyib və bu, bitkiçilik təsərrüfatlarında aqrokimyəvi vasitələrin, pestisid və bitki zərərvericilərinə qarşı tətbiq edilən vasitələrin düzgün həyata keçirildiyini göstərir. Geri qaytarılan 2 nəqliyyat vasitəsinin sənədlərində olan problemlər aradan qaldırılandan, 3 nəqliyyat vasitəsindəki kənd təsərrüfatı məhsulları isə zərərvericilərə qarşı müvafiq fitosanitar tədbirlər həyata keçiriləndən sonra məhsullar yenidən ixrac olunub”.

# Erməni hakimin kompüteri müsadirə edilib, kabineti isə möhürlənib

***Yerevan şəhərindəki ümumi yurisdiksiya məhkəməsinin hakimi David Qriqoryanın ofisində axtarış aparılıb, onun kompüteri müsadirə olunub, sonra isə kabineti möhürlənib.***



SİA Ermənistana məxsus aysor.am saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə politica.am informasiya verib. İnformasiyada deyilir ki, Şəxsi Tədqiqat Xidmətinin müstəntiqi bu kabinetin cinayət yeri olduğunu əsas gətirərək polisə kabineti möhürləmək tapşırığı verib. Amma hansı cinayət və hansı iş üzrə olduğu hələlik aydın deyil. Məzuniyyətdən dönən hakim baş verənlərdən təəccüblənib. Hakimn və onun vəkilinin kabinetə daxil olmasına qadağa qoyulub.

***İnam Hacıyev***

# Qozbeli qəbir düzəldər

## *Nikol hansı donu geyinirsə geyinsin, yamağı görünür*

***Ermənistanın Azərbaycana əsassız ərazi iddiasının, davam edən işğal rejiminin düşmən ölkəyə "bəxş elədiyi" ən pis sürpriz onun bütün regional iqtisadi və energetik, kommunikasiya layihələrindən kənarda, blokada rejimində saxlanmasıdır. Bunun da ən birinci səbəbi ölkəyə rəhbərlik edənlərin işğalçılıq siyasəti aparmalarıdır ki, bu günə kimi Ermənistan özünün sovetdən qalma rüşeym iqtisadiyyatı ilə on illərdir ki, dünya iqtisadi sisteminə çıxış əldə edə bilməyən və inteqrasiya oluna bilməyən işğalçı ölkə, nəticədə, tullantı ölkəyə çevrilib.***



Bu prosesin daha sürətlə baş verməsinin səbəbi isə, sərsəm, siyasi savaddan uzaq olan Nikol Paşinyan hakimiyyətə gəldiyi gündən daha çətin anlar yaşandı. Yeni hakimiyyət də əvvəlkilər kimi reallığı ört-basdır etməklə, hər hansı müsbət bir nəticə əldə etmək xülyası ilə fəaliyyət göstərir. Bu, həm daxili sosial-iqtisadi vəziyyətin ağır olaraq qalmasında, həm də Ermənistan-Azərbaycan münaqişəsinin həllində özünü göstərir. Ermənistan rəhbərliyi ənənəvi absurd mövqeyi ilə özünün durumunu daha da ağırlaşdırır, eyni zamanda, münaqişənin danışıqlar yolu ilə həllini mürəkkəbləşdirməkdə davam edir. Buna beynəlxalq ictimaiyyətin reaksiyası getdikcə artır. Bir sıra ekspertlər Ermənistanın işğal etdiyi Azərbaycan ərazisini tərk etməsindən başqa yolun olmadığını açıq tərzdə vurğulayırlar. Ancaq əsas məsələ odur ki, bu sadə həqiqəti dərk etməyə erməni siyasi şüuru, nə də Paşinyan təfəkkürü qabil deyil.

Rusiyalı ekspert Aleksandr Duqin də Ermənistanın öncə, beş rayonu boşaltmasının zəruri olduğunu vurğulayıb. Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar. Digər ekspertlərin də fikirlərini xatırlatmaq olar. Lakin onların hamısının bir ortaq fikri var: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çəkməlidir. Burada reallıq aydın görünür. Rəsmi İrəvan nə qədər söz hoqqabazlığı etsə də, ondan indi hər kəs zəbt etdiyi ərazilərdən silahlı quldur dəstələrini çıxarmağı tələb edir. Bunun hansı formatda ediləcəyi məsələsi, artıq danışıqların predmetidir. Hər bir halda, aydındır ki, əsas şərt Ermənistanın təcavüzkar olaraq, Azərbaycanın işğal etdiyi ərazilərindən çıxmasından ibarətdir.

Buradan sadə bir məntiqi nəticə alınır: Ermənistanın problemin həlli ilə bağlı təsəvvürləri ilə reallıq arasında dərin bir ziddiyyət mövcuddur. Bunu nə ilə izah edirsən et, heç nə dəyişmir. İstər mücərrəd surətdə erməni xalqının iradəsindən bəhs et, istərsə də Paşinyan hakimiyyətinin siyasi iradəsindən dəm vur və ya başqa tarixi "faktlar" gətir, reallıq budur: təcavüzkar zəbt etdiyi torpaqlardan getməlidir, vəssalam!

Göründüyü kimi, mövcud vəziyyət tamamilə Paşinyanın əleyhinə işləyir. Şantaj, təhdid, siyasi rəqiblərin sıradan çıxarıldığı, müstəqillik dövründə heç bir demokratik seçki keçirmək təcrübəsinə malik olmayan bir dövlətdə bir ay içərisində demokratik seçkilərin təşkil olunacağı vədi isə, boş sözlərdən başqa bir şey deyil.

Baş verənlər, onu deməyə əsas verir ki, Nikol Paşinyan saxta və köhnəlmiş fikirləri təkrarlamaqla məşğuldur. Belə bir müqayisə də yerinə düşər ki, Nikol Paşinyanla Qorbaçovun Azərbaycan üçün elə bir fərqi yoxdur, çünki hər ikisi işğalı təfəkkürə malikdilər. Ona görə də, Nikol hansı donu geyinirsə geyinsin, yamağı görünür. Çünki yalan ayaq tutur, ancaq yerimir. Yerisə belə, uzağa gedə bilmir. Çünki onun geydiyi papışlar bünövrədən cırıqdır.

### Quldur Paşinyanın quldur siyasəti

İstər Ter-Petrosyan, istər Sarkisyan, istərsə də Paşinyan olsun, Ermənistanda baş verən ictimai-siyasi gərginlik, problemlər bitib-tükənmir və hakimiyyətdə özbaşınalıqlarından cana doymuş erməni xalqı artıq ayağa qalxmaqdadır.

Etirazçılar bildirirlər ki, əvvəlki quldur rəhbərlərdən Paşinyan heç də fərqlənmir. Və erməni xalqı bilir ki, hakimiyyətə yalan vədlərlə gəlib və aksiyalara davam edən Nikol Paşinyan bilməlidir ki, hər şeyin bir sonu olduğu kimi, Paşinyanın da oyunbazlığının sonunun zamanı gəlir: necə deyərlər, Paşinyan minbir hiylə ilə hördüyü corabın toruna özü düşüb. Ölkə fəlakət durumundadır. Repressiv şərait, ağır sosial-iqtisadi durum üzündən ölkəni tərk edənlərin sayı sürətlə artır.

Bir sözlə, Paşinyanın hakimiyyət dönəmini təhlil edən siyasi şərhçilər və araşdırmaçı erməni yazarlar ölkədə heç bir inkişaf və islahatlar getmədiyini, qalan tənəzzül, iflas, korrupsiya və bürokratik əngəllər bu gün də davam etməkdədir.

### Erməni xalqının tələbi - işğala son qoymaq!

Göründüyü kimi, ölkədə baş verənlər sübut edir ki, Azərbaycanla normal münasibətlər yaratmadan Ermənistanın bir dövlət olaraq mövcudluğunu davam etdirməsi mümkün deyil.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qazanılan bu uğurlar ölkəmizin beynəlxalq miqyasda da mövqeyini əhəmiyyətli dərəcədə gücləndirən faktorlardan biri kimi çıxış edir: "Bütün bunlara paralel olaraq, uğurlu xarici siyasət Azərbaycanı beynəlxalq ictimaiyyətə daha yaxşı tanıtdırmaqla bərabər, dünyanın diqqətini ölkəmizə yönəldib. Ermənistan uğursuz dövlətdir. Ermənistan dövlətçiliyi iflasa uğrayıb. Onların qəhrəmanları, onların generalları oğrulardır, onların ordusu oğru ordusudur. Bunu indi Ermənistan xalqı görür və Ermənistan hakimiyyəti deyir".

Baş verənlər, onu deməyə əsas verir ki, Ermənistanın yeni siyasi elitası Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ideyaya malik deyil. Bu səbəbdən də, Nikol Paşinyan saxta və köhnəlmiş fikirləri təkrarlamaqla məşğuldur. İdeya boşluğuna düşən hökumət başçısı öz cəmiyyətinin dəstəyini qazanmaq üçün belə əsassız çıxışlarından hələ də əl çəkmir. Eyni zamanda, Nikol Paşinyanın başçılıq etdiyi yeni hökumət ölkənin qarşısında duran köklü məsələlərinin həllini real addımlar atmaqda deyil, sanki avantürist çıxışlar etməkdə görür. O, xarici siyasət kursunda dəyişikliklər etmədiklərini bildirməklə, ilk növbədə, Rusiyanı aldatmağa çalışır. Ancaq əlaltdan erməni lobbisi ABŞ Prezidenti Donald Trampla Nikol Paşinyanın görüşünü təşkil etmək üçün dəridən-qabıqdan çıxır.

Rusiya Prezidenti Vladimir Putinin Yerevana rəsmi səfərinin qeyri-müəyyən müddətə reallaşacağı isə, Ermənistanın risqlilik dərəcəsini artırır.

### Erməni siyasi şüurunun cahilliyi: işğal olunan ərazini tərk etmək zəruriliyinin dərk edilməməsi

Başqa bir maraqlı fakt da N.Paşinyanın Rusiya mətbuatına Ermənistan-Rusiya münasibətləri ilə bağlı verdiyi müsahibədə Ermənistan-Azərbaycan münaqişəsinə toxunaraq, Dağlıq Qarabağ ermənilərinin danışıqlarda iştirakı məsələsini yenə də qabartmağa çalışmasıdır. Baş nazirin məntiqinə görə, "Dağlıq Qarabağ xalqının iştirakı olmadan münaqişəni necə həll etmək olar?" Ancaq bu ifadə altında yalnız Azərbaycanın həmin bölgəsində qanunsuz qurum yaradan bir qrup separatçını nəzərdə tutmaqla, N.Paşinyan yenə də yanlış bir mövqe tutmuş olur. Azərbaycan tərəfi həmin bölgənin azərbaycanlı icması ilə yanaşı, erməni icmasının da müəyyən mərhələdə prosesdə iştirak edə biləcəyini istisna etmir. Lakin rəsmi İrəvanın işğal faktının üstündən sükutla keçərək, "Arsax" adı altında yalnız bölgədə məskunlaşmış terrorçu-separatçıları nəzərdə tutması, nəinki beynəlxalq hüquqa, heç adi etik qaydalara belə uyğun deyil.

Belə ikiüzlülük və yalançılıqla ən kiçik münaqişəni belə həll etmək mümkün deyil. Bütün dünya bilir ki, Ermənistan havadarlarının birbaşa yardımı ilə Azərbaycan torpaqlarını işğal edib və münaqişə həmin məqamdan başlayıb. Bu səbəbdən, onun həllinə işğalçıların zəbt etdikləri torpaqlardan qeydşərtsiz çəkilməsi ilə başlamaq olar. Yalnız bundan sonra digər məsələləri müzakirə etmək mümkündür. İşğal ərazisindən təcavüzkarın çıxmadığı halda, hansısa həll variantından danışmaq imkansızdır. Bu nəticə Madrid prinsiplərindən, Helsinki Yekun Aktının maddələrindən, BMT-nin və digər beynəlxalq təşkilatların münaqişə ilə bağlı qəbul etdikləri sənədlərdən birbaşa irəli gəlir.

Rusiyalı ekspert Aleksandr Duqin də Ermənistanın öncə, beş rayonu boşaltmasının zəruri olduğunu vurğulayıb. Bundan sonra nizamlama prosesinin növbəti mərhələlərinə keçmək olar. Digər ekspertlərin də fikirlərini xatırlatmaq olar. Lakin onların hamısının bir ortaq fikri var: Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından qoşunlarını çəkməlidir. Burada reallıq aydın görünür. Rəsmi İrəvan nə qədər söz hoqqabazlığı etsə də, ondan indi hər kəs zəbt etdiyi ərazilərdən silahlı quldur dəstələrini çıxarmağı tələb edir. Bunun hansı formatda ediləcəyi məsələsi artıq danışıqların predmetidir. Hər bir halda, aydındır ki, əsas şərt Ermənistanın təcavüzkar olaraq Azərbaycanın işğal etdiyi ərazilərindən çıxmasından ibarətdir. Ancaq erməni xalqı bu reallığı hələ də anlamır.

### Azərbaycanın Dağlıq Qarabağ məsələsində mövqeyi daha da güclənir

Azərbaycan Prezidenti İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı prinsipial və ardıcıl mövqeyi artıq sözügedən konfliktlə əlaqədar, regionda tamam yeni bir vəziyyətin yaranmasına gətirib çıxarmaqdadır. Bu faktoru şərtləndirən ilk səbəblərdən biri budur ki, Azərbaycanın həyata keçirdiyi hücum diplomatiyası nəticəsində, Ermənistanın işğalçı siyasətinin ifşa edilməsi reallaşıb. Azərbaycanın bütün sahələrdə əldə etdiyi uğurlar, qonşu ölkələrlə yüksək səviyyəli əməkdaşlığı, dostluq və mehriban qonşuluq siyasətini daha güclü olması Azərbaycan Prezidentinin uğurlu diplomatik siyasətinin real nəticəsidir. Təkcə, bir faktı qeyd etmək kifayətdir ki, Azərbaycan və Rusiya prezidentləri 2018-ci ildə 6 dəfə görüşüblər, ölkə rəhbərləri arasında mövcud olan şəxsi dostluq münasibətləri dövlətlər arasında bütün istiqamətlər üzrə əlaqələrin inkişafına olduqca mühüm təsir göstərir.

Siyasi İnnovasiya Texnologiyalar Mərkəzinin rəhbəri, politoloq Mübariz Əhmədoğlu N.Paşinyanın ağıllı, savadlı və dərin düşüncəli rəhbər olmadığını bildirib: "Quyuya su tökməklə, quyu dolmaz. Paşinyanın siyasət deyilən məsələdən xəbəri yoxdur. Fikir vermisinizsə, "Exo Moskvı" Televiziyasına verdiyi müsahibəsində Paşinyan deyirdi ki, mən oğlumu Dağlıq Qarabağa sülh məqsədi ilə göndərmişəm, orada müharibə getmir. Amma müsahibənin digər bölümündə bildirir ki, əgər mənim oğlum ordadırsa və öz ölkəmi və xalqımı qorumaqdan ötrü heç nəyimi əsirgəməyəcəm. Baxın, N.Paşinyanın fikirləri bir-birinə zidd mövqelidir. Birincisi, oğlunu Dağlıq Qarabağa göndərməklə sən dərin düşüncəli yox, əksinə, dayaz düşüncəli adam olduğunu sübut etmisən".

Ümumiyyətlə, real vəziyyəti təhlil edən ekspertlərin, demək olar, hamısının mövqeyi bundan ibarətdir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Azərbaycan torpaqlarını işğal altında saxlayıb, qonşu dövlətlərə ərazi iddiası irəli sürmək isə, erməni dövlətinin gələcəyini təhlükə altına alır. Bu baxımdan, Ermənistanda vəziyyətin düzəlməsinin əsas şərtlərindən biri və ən başlıcası, İrəvanın öz qoşunlarını Azərbaycanın işğal olunmuş torpaqlarından çıxarmasıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir.

Ümumiyyətlə, real vəziyyəti onu süybut edir ki, Ermənistanın bir dövlət olaraq mövcudluğu və gələcəyi Dağlıq Qarabağ amilindən asılıdır. Çünki bu dövlətin gələcəyi Azərbaycanla qonşuluq prinsiplərinə əməl etməkdən keçir. İşğalçı Ermənistanın yeni rəhbərliyi Paşinyan da sələfləri kimi, səbəbi qoyub nəticələrlə uğursuz mübarizə aparır. Deməli, yekun eyni olacaq, daha dəqiqi, daha pis olacaq... Bu isə, bir daha o deməkdir ki, Ermənistanın sosial bəlalardan xilas yolu rəsmi Bakıdan keçir.

**A.SƏMƏDOVA**

# "Milli Şura" fəaliyyətini dayandıra bilər

***Cəmil Həsənli ilə Əli Kərimli arasında qarşıdurma özünün pik nöqtəsinə yüksəlib. Son vaxtlar C.Həsənli ilə Ə.Kərimli arasında ziddiyyətlərin yarandığı bildirilir. Eyni qurumda - "Milli Şura"da təmsil olunan bu şəxslərin gözlənilmədən bir-birinə qarşı ittihamlar irəli sürməsi nədən irəli gəlir və ola bilərmi ki, qarşılıqlı ziddiyyətlər nəticə etibarı ilə onların ayrılmasına gətirib çıxarsın? Söhbət etdiyimiz müsahiblərimiz C.Həsənli ilə Ə.Kərimlinin mehriban düşmənlər olduqlarını və iddialarının toqquşması səbəbindən onların uzun yol getmələrinin mümkün olmadığını bildirdilər.***

### "Azadlıq Hərəkatçılar Birliyi"nin sədri Təhmasib Novruzov: "Müxalifəti qara günlər gözləyir"



- Hər zaman müxalifət düşərgəsində təmsil olunan şəxslər arasında qarşıdurmalar olub və bundan sonra da olacaq. Yəni C.Həsənli ilə Ə.Kərimli arasında konfliktlərin yaranması gözlənilən bir haldır. Çünki müxalifət düşərgəsinə rəhbərlik edən şəxslərin şəxsi ambisiyalarının olması onlar arasında qarşıdurmaların yaranmasını qaçılmaz edir. Dağıdıcı müxalifət liderlərinin təsir altında olması və boyunlarından böyük iddialarla çıxış etmələri, onlar arasında kəskin dava-dalaşların olması ilə nəticələnəcək. Onsuz da hər zaman müxalifət daxilində qarşıdurmalar olub və bundan sonra da olacaq. Çünki müxalifət düşərgəsində bir-biri ilə yola getmək və biri digərini yola vermək kimi məsələlər yoxdur. Ümumiyyətlə, bu gün müxalifətçilər üzdə yalandan biri-birinin üzünə gülürlər, amma arxada isə, bir-birlərindən zəhlələri gedir. Bütün bunların kökündə də müxalifət partiya sədrlərinin şəxsi ambisiyaları dayanır. Ümumiyyətlə, müxalifət düşərgəsində təmsil olunan şəxslər reallığı özündə əks etdirməyən xəyallarla yaşayaraq, ümid edirlər ki, nə vaxtsa, onlar da nəyə isə nail ola biləcəklər. Onların bu arzularının həyata keçməsi mümkün deyil. Çünki həmin qüvvələr xalqın inamını itirmiş yalançılardır. Bu baxımdan da, müxalifəti qara günlər gözləyir. Onlar öz fəaliyyətsizliklərini çox gözəl başa düşürlər. Yəni müxalifət liderləri başa düşürlər ki, uğursuzluğa düçar olublar və onların cəmiyyətdən heç bir dəstəyi yoxdur. O cümlədən də, müxalifət düşərgəsində fəaliyyət göstərən partiyalar ortaya konkret ideya qoya bilmirlər. Onların ortaya nə isə ideya qoya bilməmələrinin səbəbi odur ki, bu partiyaların əksəriyyəti hansısa ideologiya əsasında formalaşan partiyalar deyil. Həmin partiyalar ayrı-ayrı şəxslər ətrafında formalaşaraq, fəaliyyət göstərirlər. Belə olan halda da, sözügedən partiyaların iş fəaliyyəti də həmin şəxslərin şəxsi maraqlarına yönəlir.

### AGAAMC-ın sədri, fəlsəfə doktoru İlqar Orucov: "Cəmil Həsənli ilə Əli Kərimli arasında qarşıdurma dərinləşəcək"

- Azərbaycanın siyasi səhnəsində adını müxalifət qoyan, amma fəaliyyətləri qaragüruhdan, şəxsi tamahdan, ambisiyalardan ibarət "Milli Şura" və onun başında dayanan insanlar heç zaman potensial qüvvə, real müxalifət və sosial bazaya malik platforma ola bilmədi. Səbəb, ilk növbədə, bu uğursuz proyektin koordinatorlarından olan Ə.Kərimli və C.Həsənli kimi şəxsi maraqları naminə ən iyrənc mübarizəyə hazır olan insanların mahiyyətindədir. Ümumilikdə, ölkənin analoji müxalifətinin yenilənməsi prosesi qaçılmazdır. Bu təfəkkürdə olan adamlar, sadəcə, müxalifətçilik üçün əngəldirlər. Kim istəyir ki, ölkədə müxalifət olmasın? Bunu hansı iqtidar istəməz? Əlbəttə, real və həqiqi müxalifət hər bir dövlətin və cəmiyyətin inkişafında vacib faktordur. "Milli Şura" yarananda, biz bu qurumun perspektivsizliyini görürdük. İlk növbədə, ona görə ki, "Milli Şura"nın sifarişini Azərbaycan cəmiyyəti verməmişdi, bu, hansısa dövlətlərin siyasi mətbəxlərində hazırlanmışdı.



Digər tərəfdən, Ə.Kərimli də, C.Həsənli də, "Milli Şura"nın digər funksionerlərini də kifayət qədər yaxşı tanıyırıq, bu adamlar üçün birləşdirici dəyərlər yoxdur. Fikrimcə, "Milli Şura"da C. Həsənli ilə Ə.Kərimli arasında yaranmış narazılıq hələ ilkin formasındadır, bu proses dərinləşəcək və zaman gələcək ki, bunlar bir-birilərini satqınçılıqda, hansısa maliyyə maxinasiyalarında, siyasi riyakarlıqda ittiham edəcəklər. İndiyədək Ə.Kərimlinin yanında olmuş, onunla eyni cəbhədə dayanmış nə qədər adam tanıyırıq ki, hazırda Kərimli ilə konkret düşmən münasibətindədirlər. Ə.Kərimlidə ifrat hakimiyyətə hərislik, paxıllıq, özündən başqa kimisə qəbul etməmək kimi eqoizm vardır. Bütün bu istəkləri isə şəxsi qabiliyyəti, intellektual səviyyəsi, istedadı tərs mütənasiblik təşkil edir. Cəmil Həsənli isə vaxtilə parlamentdə təmsil olunduğu zamankı çıxışları, yazıları ilə parlamentə seçilməyəndən sonrakı açıqlamaları arasındakı ziddiyyətlərlə şəxsi keyfiyyətini, ziyalı üçün ayıb sayılan mövqe daşıyıcı olduğunu sübut etmiş biri kimi cəmiyyətdə tanınır. Bu adam yenidən parlamentdə əyləşəcəksə, dərhal Ə.Kərimlini söyə bilmək qabiliyyətinə malikdir. Yəni bütün bunlar özünə müxalifət deyən bu insanların iç üzünü ortaya qoyur. Heç bir zaman bu insanlar bir olmayıblar. Onların birliyi, sadəcə, görüntüdən başqa, bir şey deyildir. Bugünkü müxalifət iqtidarın malik olduğu sosial bazanın beş faizinə belə malik deyilsə, 26 ildir bir araya gələ bilmirsə, bu qədər müddətdə heç bir uğur qazana bilməyibsə, artıq çoxdan çıxıb getməli idi. Fikirləşirəm ki, cəmiyyət siyasi səhnəyə fərqli mövqeyə, dünyagörüşə, amma dövlətə bağlı, dövlətçiliyin qədrini bilən yeni nəsil konstruktiv müxalifəti gətirəcək, indiyədək mövcud olan və özünə müxalifət deyən, zərərli təfəkkürə malik kərimliləri, həsənliləri siyasi səhnədən birdəfəlik silib-süpürəcəkdir.

***GÜLYANƏ***

# Əli Kərimli - erməni bicliyindən törənən işverən



***Həyatı boyu erməni bicliyi ilə işverənlik etməkdə kimsənin AXCP sədri Əli Kərimliyə çata bilməsi mümkünsüzdür. Bu yerdə hamının şahid olduğu bir məqama toxunmaq istərdim. İnsanlar hələ sovet dövründə mağaza müdirlərinə "zavmaq" deyirdilər. Bu, o vaxtlar idi ki, bir iş görmək istədikdə, az qala Kremlə belə ərizə yazmalıydın. Yaşadığım Yasamal (əvvəllər Oktyabr rayonu adlanırdı-R.H.) rayonunda "zavmaq" müdirlər çox idi. Onların da çoxu erməniydi. Hər cürə şəraitləri var idi, istədiklərini də edirdilər. Onlardan biri öz xarici avtomobili ilə hər dəfə həyətə girəndə, "Mersedes"inin siqnalının səsi ətrafı bürüyürdü. Qonum-qonşu nə qədər bu adamdan sahə müvəkkilinə şikayət edirdisə, xeyri olmurdu. Çünki erməni köpəyinin balası rüşvətini verib, kefini çəkirdi və işini həll edirdi. Qarabağ məsələsi ortaya düşəndə, bu erməni köpək balası şələ-şüləsini yığışdırıb köçdü Yerevana.***

Bunu deməkdə məqsədim odur ki, bu gün o erməni köpəkoğlu yolunu gedənlər çoxdur. Avropaya "siyasi mühacir" adı ilə səpələnənlər - Tural Sadıqlı, Məhəmməd Mirzəli, Vidadi İsgəndərli, Orduxan Teymurxan, Sevinc Osmanqızı, Qurban Məmmədov və... bu kimilər xarici ağalarına nökərçilik edən AXCP sədri Ə.Kərimlinin çağrışına əməl etməklə, başlarını bəlaya saldıqlarını hələ də anlamırlar. Çünki bu xəyanətkar - mənəviyyatsızlar toplusu anlamaqdan uzaq olur və hələ də bu günə kimi, Ə.Kərimlinin xaricə "istehsal" etdiyi bu "siyasi mühacirlər"nə tapşırıq verərək, dövlətimizə və xalqımıza qarşı böhtanlar deməsi, deyilənləri təsdiqləmir ki? Bax, bu faktlara əsaslanaraq, belə bir məntiqi nəticəyə gəlirəm ki, Ə.Kərimli, həqiqətən də, həyatı boyu erməni bicliyi ilə işverənlik edib. Səbəbi də bəllidir. Belə ki, son 16 ildə Azərbaycanın sürətli inkişafı sosial sahədə irimiqyaslı islahatlar aparmasını Ə.Kərimli kimi erməni maşası həzm edə bilmirlər. O, bu gün yenidən sosial şəbəkələrdə iddia edir ki, dünyada, o cümlədən, Avropada böhran yoxdur, dünyada heç bir böhran hökm sürmür". Ona görə də, nəyin bahasına olursa-olsun, iyul ayının 22-nə kimi, yeni mətbuatımızın 144 illiyi ərəfəsi mitinq keçirsin, bəlkə nəyəsə nail ola bilərlər. Ay bədbəxtlər, nə qədər xəyallarla yaşayacaqsınız?

### "Əli Kərimli 5-3 nəfər qaçaq-quldur başına yığıb, mitinq keçirməklə, növbəti biabırçılıq nümayiş etdirmək istəyir"

YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov bildirib ki, Ə.Kərimlinin fikirləri erməni lobbisinin, Azərbaycanı istəməyən dövlətlərin, ölkəmizə qarşı təzyiq göstərməyə çalışan beynəlxalq qurumların fikirləri üst- üstə düşür: "Yəni bunlar eyni mənbədən istiqamətləndirilir. AXCP-də olan 5-10 nəfər də istefa verir. Onlar da, bildiriblər ki, Ə.Kərimli Azərbaycan xalqının maraqlarının deyil, başqa-başqa dövlətlərin, qurumların, xüsusilə, erməni lobbisinin maraqlarını həyata keçirməklə, məşğuldur. O baxımdan, ölkədə görülən işlərə kölgə salmaq, mənfi fikir söyləmək, çox primitiv şəkildə, saxta rəqəmlərlə insanları çaşdırmaq, bilavasitə həmin təxribatçı qrupların planının tərkib hissəsidir".

S.Novruzov onu bildirib ki, Ə.Kərimli sübut etməyə çalışır ki, dünyada iqtisadi böhran yoxdur: "Hazırda bütün Şərqi Avropa, eləcə də, Avropanın digər hissəsinə aid olan ölkələr böhran içərisindədir. Elə təkcə Yunanıstanı götürək ki, hansı vəziyyətdədir. Ə.Kərimlinin Böyük Britaniya banklarında milyonlarla pulunun olması sübut olunub. Övladları ən bahalı universitetlərdə oxuyub, xaricdə bahalı evləri və mülkləri var. Bunları hansı vəsait hesabına əldə edib: satqınçılıq, erməniyə nökərçilik etməklə. Ə.Kərimli 5-3 nəfər qaçaq-quldur başına yığıb, növbəti biabırçılıq etmək istəyir. Çünki cəmiyyət onları qəbul etmir. Ona görə də, onlar tarixin arxivinə, özü də qara arxivinə birdəfəlik gedəcəklər".

S.Novruzov, həyatı boyu erməniyə nökərçilik edən Ə.Kərimli və onun kimi erməni qulbeçələrinin son illər aparılan islahatları öz adlarına çıxdıqlarını bildirir. Çünki belə satqınlar reallığı anlamırlar: "Ölkə Prezidenti xalqın maraqlarını həyata keçirir. Atılan addımların heç biri xarici qüvvələrin təsiri ilə həyata keçirilmir. Sapı özündən olan baltaları başa düşürük. Azərbaycan dövləti Azərbaycan xalqının yanındadır. Onların məsələlərə bu cür yanaşmaları onların erməni xislətindən irəli gələn məsələdir. Biz bu islahatları və atılan addımları cəmiyyətə düzgün çatdırmalıyıq".

Sonda bir daha təkrarlamaq istəyirəm: ölkənin taleyi xarici paytaxtlardakı qaranlıq kulislərdə qəbul ediləcək hansısa qərarların öhdəsinə buraxılmayıb, buraxılmayacaq da. Bunu bu satqınlar, o cümlədən, erməni bicliyindən törənən Ə.Kərimli işverən bir daha anlamağa məcburdur.

***Rəfiqə HÜSEYNOVA***

# Yazıçı Andrea Kamilleri vəfat edib



İtalyan prozaiki Andrea Kamilleri 93 yaşında Romada vəfat edib. AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, bu barədə "La Repubblica" qəzeti yazıb. İyun ayında yazıçını ürək tutması diaqnozu ilə Santo-Spirito xəstəxanasında yerləşdiriblər. Polis komissarı Montalbano haqqında silsilə romanların müəllifi Andrea Kamilleri İtaliyanın detektiv janrında yazan ən populyar yazıçılarından biri olub.

2015-ci ildə Kamilleri söz sənətinə töhfəsinə və detektiv janrında klassik dünya ədəbiyyatının ən yaxşı ənənələrinə sadiqliyinə görə "İtaliyada N.V.Qoqol adına mükafat"ın laureatı olub. Andrea Kamilleri 1925-ci il sentyabrın 6-da Aqricento əyalətinin (Siciliya) Porto-Empedokl şəhərciyində anadan olub. Uzun illər Romada yaşayıb və işləyib.

# Erməniləşən Aslan İsmayılov



### Günahsız insanların qanı qarşısında cavab verməyin vaxtıdır

Adətən, zəif və cılız canlılar böyük rəqibləriylə geniş məkanda savaşmaqdan çəkinər, yalnız özlərinin sığa biləcəyi dar deşiklərdə gizlənib, rəqiblərini də ora çəkməyə çalışırlar. Necə ki, siçovullar girdikləri yuvalarına əli keçə bilməyən pişiklərə meydan oxuyurlar və görünür, Aslan da öz adı ilə elə zənn edir ki, "aslan"dır, amma anlamır ki, nəinki çaqqal, heç həşərat da deyil. Bu həşərat və erməni nökəri yenə də dövlətə, xalqa böhtan yağdırmağa başlayıb. Çünki o, ermənidən betər erməni olmaqla yanaşı, milli və dini mənsubiyyəti, hətta onun damarında axan qanı da murdar erməni qanıyla eynidir. Əgər belə olmasaydı, vaxtilə Kremlə nökərçilik etmiş "vəkil" hələ Sumqayıt hadisələri dövründə bu hadisənin araşdırılması zamanı qeyri-obyektivliyə yol verdi və nəticədə, günahsız insanlara ən ağır cəza verdilər.

Xirtdəyə qədər zibilin içində olan bu həşərat "vəkil"in ələ keçirdiyi mal-mülk: torpaq biznesi, "hədiyyə" edilən ofisin sonrakı dava-dalaşı, dəyəri yüz minlərlə ölçülən malmülklər. Bu sən həşərat Aslan İsmayılovsan ki, hətta ən yaxın qohum-əqrəbalarına belə boşanma ərizəsini 100 manata yazmaqla, özünü "qeyrətli vəkil" sayırsan. Mən deyəndə ki, sən özünə "Aslan" adı qoymaqla, aslan yox heç çaqqal da deyilsən, başladın öz əxlaqsızlığını nümayiş etdirməyə. Doğru deyirsən, əsil adını düzgün demədim: sən heç həşərat da deyilsən. Deyirsən ki, bu ölkədə hamı əqidəsini dəyişib, bircə "təmiz adam" varsa, o da "sənsən". Hansı əqidədən danışırsan? Bax, bu yerdə sözümü deməsəm, özüm-özümü bağışlamaram. Gör nə qədər həyasızlaşmısan ki, kimliyini də unudursan. Unutmusansa, xatırladım: vaxt var idi, Milli Məclisdə ölkə rəhbərliyinin qarşısında çıxış elədiyinə görə, sevincindən olmayan papağını göyə atıb, dombalaq aşırdın. Bir neçə il bundan öncə, dövlət başçısı ilə görüşəcəyini camaata car eləmişdin, gün ərzində üzünü səkkiz dəfə qırxırdın ki, birdən çağırarlar. Ancaq istəklərin puç oldu və gözündə qaldı. O zaman oldun "Elçibəy"çi. 1998-ci ildə isə Etibara vəkillik etdin, 2005-ci ildə "İsa"çı rolunda çıxış etdin. Az müddət keçmədi ki, min sifətini, xəyanətkarlığını görüb, səni Müsavatdan da qovdular. 2013-cü ildə isə Əli Kərimli-Cəmil Həsənlinin üfunət məkanı olan "Milli Şura"ya dürtüldün.

Nə edirsən et, o nağılları öz səviyyəndə olanlara söylə. Bu sözü bir də təkrarlamaq istərdim. Rəhmətlik Hacıbaba Bağırovun sözü olmasın, "bizə paçka basma".

### Sosial şəbəkənin Əli Kərimlidən sonra xəstəsi Aslan İsmayılov

A.İsmayılov bu yerdə bildirib ki, Ə.Kərimli məndən sonra sosial şəbəkə "məşhurudur". A.İsmayılov öz çirkin və böhtan xarakterini sosial şəbəkələrdə göstərməklə, özünü "güclü vəkil" sayır. Elə 2013-cü il seçkilərində Rusiyanın əlaltısı kimi prezidentliyə namizəd olmağa hazırlaşan Rüstəm İbrahimbəyov 2009-cu ildə "Ziyalılar Forumu" adlı bir qurum yaradarkən, sən A.İsmayılov həmin quruma da özünü dürtdün. Çünki eyni erməni xisləti, satqınların birləşdiyi qurum idi. Hər ikisi üçün milli-mənəvi dəyər, dövlətçiliyə xidmət kimi anlayışlar yoxdur, yalnız öz şəxsi mənfəətləri hər şeydən üstündür.

### Rauf Arifoğlu: "Aslan İsmayılov reketçiliyi cinayət tərkibli oyun, pis nümunə və böyük təhlükədir"

"Yeni Müsavat" qəzetinin təsisçisi və baş redaktoru Rauf Arifoğlunun qələmə aldığı "Aslan İsmayılov niyə vətən xaininə qoşuldu" sərlövhəli yazısında A.İsmayılovun cinayətkar və təhlükəli fərd olduğunu bildirir: "Aslan İsmayılov reketçiliyi cinayət tərkibli oyun, pis nümunə və böyük təhlükədir. Onun əməllərinə son qoyulması Azərbaycanın ləyaqətli insanlarının, ölkənin iqtisadi inkişafı üçün çalışan iş adamlarının, milli-mənəvi dəyərlərimizə sahib çıxan ziyalıların, media nümayəndələrinin, hüququn, qanunvericiliyin, müstəqil məhkəmə sisteminin şantajdan xilas edilməsidir".

AMİP funksioneri Əli Orucov "Səs" qəzetinə açıqlamasında A.İsmayılovun vəkil olmadığını bildirib: "Onun vəkillik səlahiyyətlərinə xitam verilib. A.İsmayılov 1988-ci ildə Rusiya xüsusi xidmət orqanları tərəfindən ermənilərin törətdikləri Sumqayıt hadisələrinə görə günahsız azərbaycanlıların cəzalandırılması üçün Azərbaycana göndərilmiş şəxsdir. O, prokuror olaraq, cinayəti və vəhşiliyi törədənlərə deyil, günahsız soydaşlarımıza ən ağır, hətta ölüm hökmünün verilməsini tələb edən xaindir. Onun arxasında heç bir qüvvə-filan yoxdur. O, kimdir ki, arxasında da hansısa qüvvələr dayansın?! Aslan İsmayılovun işi-gücü təxribat törətmək, böhtan, şantaj və qarayaxmalar səsləndirməkdir".

Tanınmış vəkil Elçin Qəmbərovun "Aslan İsmayılov. Yalan Anatomiyası" kitabında isə müəllif A.İsmayılovun çoxüzlü və şantajçı bir məxluq olduğunu deyib: "Bəlkə yalandır, ay özünü adına görə "aslan" sayan, mən səni heç çaqqal qədər də qiymətləndirməmişdim". Qələmin iti olsun, ay Elçin Qəmbərov. Mən də onu çaqqal qədər də qiymətləndirməmişəm. Çünki Vətən xaini olan A.İsmayılov azərbaycanlıların tərəfində olsaydı, özünü ermənipərəst kimi aparmazdı. Bir də gör ondan nə istəyirəm. A.İsmayılov kimi şərəfsizlər bilməlidirlər ki, xalq və dövlət maraqlarımıza qarşı törətdikləri çoxsaylı xəyanətlərinin cavabının verilməsi zamanı çatıb. Çünki onun kimilərinin damarlarında illərlə xəyanət qanı axıb. Lənət olsun, belələrinə. Əmin olun ki, əlahəzrət qanun qarşısında cavab verəcəyiniz gün o qədər də uzaqda deyil, ay erməniləşən Aslan İsmayılov!

**Rəfiqə HÜSEYNOVA**

# Əli Kərimlinin "miqrant alveri" biznesinin "dileri" kimdir?

## *Bu dəfə AXCP gənclər komitəsinin fəalı Türkel Azərtürk açığa çıxdı*

***AXCP sədri Əli Kərimlinin "siyasi mühacir", yaxud "miqrant alveri" ətrafında ortaya çıxan faktlar bu gün də ortaya çıxmaqda davam edir. "Səs"ə daxil olan məlumata görə, artıq bu bazar elə bir qalmaqallı ticarətə dönüb ki, Avropada - sözügedən biznes məsələsində Ə.Kərimliyə və adamlarına ortaq olan şəxslər əldə edilən gəlirləri bölüşdürə bilmədiklərinə görə, ifşa kampaniyası aparırlar. Lakin fakt budur ki, AXCP sədrinin "siyasi mühacir" biznesi var və həmin biznesin əsas təşkilatçılarından biri də partiyanın gənclər komitəsinin fəal üzvü Türkel Azərtürkdür.***




Artıq bu şəxsin siyasətlə, hətta ictimai işlə məşğul olmayan adamları "siyasi mühacir" qismində Avropaya göndərmək cəhdini ifşa edən audioyazı da ortadadır. "Facebook" və "Youtube" sosial şəbəkələrində sözügedən audioyazı ictimailəşdirilib. Həmin səs yazısını isə bu linkdən daxil olaraq dinləyə bilərsiniz. https://www.youtube.com/watch?v=G9oO3y1oeUo&t=19s&fbclid=IwAR3TQinDQlpWkXYJyR0f6fxSKD8rTYnW7JnS7C5lGjvHnTz50mW-je18XDE audioyazıdan açıq şəkildə məlum olur ki, tərəflər qiymətləşmə aparır, müəyyən məsləhət və tövsiyələrini verərək, onların toruna düşmüş şəxsi şirnikləşdirir, T.Azərtürk isə "cəbhəçi qardaş" adlandırılaraq, ona etimad olunduğu göstərilir.

### Faktlar, dəlillər, sübutlar...

Uzun illərdir ki, ənənəvi müxalifətin "lider" kreslosunu işğal edən və pafoslu çıxışlarla özünü "demokrat" kimi təqdim etməyə çalışan psevdomüxalifətçi Ə.Kərimlinin, əslində, hansı işlər gördüyü, artıq hər kəsə bəllidir. Hələ bir neçə il öncə, məlum olmuşdu ki, Ə.Kərimli mühacirətə göndərdiyi şəxslərə "müxalifətçi arayışı"nı 3000 dollara satır. Bunu isə, nə qədər qəribə görünsə belə, elə Kərimlinin mühacirətə göndərdiyi şəxslərin özləri də təsdiq ediblər. Həmin arayışların surətini də ölkə mətbuatına, məhz Avropada yaşayan azərbaycanlılar tərəfindən göndərmişdilər. O da, sirr deyil ki, AXCP sədrinin rəhbərliyi ilə təşkil olunan mitinqlər də, məhz mühacirətə göndərmək üçün "müştəri" axtarışı vasitəsidir. Məsələn, heç də təsadüfi deyil ki, bir neçə ay öncə, təşkil olunan mitinqlərdə adının çəkilməsini istəməyən gənc fəal həmin aksiyada "hökumətə etiraz" etdiyini desə də, "Milli Şura"nın mitinqinə qatılmaqda əsas məqsədinin etiraz etmək olmadığını etiraf etmişdi.

### "3000 manata arayış söz veriblər"

Yenə də uzağa getməyərək, biz Ə.Kərimlinin "miqrant alveri" məsələsində insanları aldatdığını sübut edən daha bir faktı xatırlatmaq istərdik. Hətta iddia oluna bilər ki, bu gün AXCP sədrinə Avropaya köçmək istəyən adamları təqdim edən də, məhz T.Azərtürkdür. İki il qabaq Kərimlinin toruna düşən şəxs sosial şəbəkədə yazmışdı. SİTAT: "Ə.Kərimliyə inanmıram. Bilirəm ki, hər zaman olduğu kimi, yenə də hamını aldadacaq. Onun korrupsionerlərdən qətiyyən heç bir fərqi yoxdur. Sadəcə, dostlarım dedi ki, get, mitinqdə iştirak elə, sonra səni Ə.Kərimli xaricə göndərəcək. Mən də çalışıram ki, həmin arayışı alım və xaricə gedim. Dostum (çox güman ki, Türkel Azərtürk nəzərdə tutulur - R.R.) Ə.Kərimlinin yanında olan adamdır. O, mənə vəd verib ki, rəhbərliklə danışıb və onlar mənə arayış verəcəklər. Dostum dedi ki, o arayışın qiyməti 3000 manatdır. Mən nə zaman o pulu ödəsəm, arayışı verib, məni xaricə göndərəcəklər".

Ə.Kərimli isə gah sosial şəbəkədə, gah da nəzarətində saxladığı AXCP-yə yaxın mətbu orqanlarda bu sübutları təkzib etməyə çalışır, ancaq bu cəhdləri işə yaramır. Çünki sübutlar çox ciddidir və bunları təkzib etmək mümkün deyil. "Yurd" sədri də bunu anlamağa başlayıb və hədəfi yayındırmağa çalışır. Ancaq ictimaiyyət hər şeyi görür və artıq Ə.Kərimlinin dediklərinə heç kim inanmır. Əvvəllər bu kimi məsələləri "Yurd"un öz media quruluşları gündəmə gətirirdi və bununla da, özlərinə müştəri yığırdılar. Ancaq artıq vəziyyət o yerə çatıb ki, "yurd"çuların özü belə Ə.Kərimliyə etiraz edir. Yuxarıda da, qeyd etdiyimiz kimi, yüksək məbləğlər qarşılığında, Ə.Kərimlinn imzası ilə verilən arayışları, məhz "Yurdçu"lar yayır. Artıq onlar da Ə.Kərimlinin, əslində, kimə və nəyə xidmət etdiyini görür və başa düşürlər.

### Həm AXCP sədri, həm onun "siyasi mühacir" biznesinin Türkel Azərtürk tipli "dilerləri" özlərini açığa çıxarıblar

Bu arada daha bir faktı da xatırlatmaq olardı. 2016-cı ildə Almaniyada yaşayan azərbaycanlı mühacirlərdən biri Kərimlinin "mühacir biznesilə" məşğul olduğunu sübut edən sənədlər göndərəcəyini bildirmişdi. Mediada adının hallanmasını istəmədiyini deyən azərbaycanlı mühacir bunu ölümlə təhdid edilməsi ilə izah edərək yazmışdı: "Ə.Kərimlinin mühacir biznesinə nəzarət edən şəxslər əlimdə faktların olduğunu bilir və məni ölümlə hədələyir, şantaj edirlər. Ancaq yaxın zamanlarda bütün Azərbaycan ictimaiyyəti Ə.Kərimlinin və onun adamlarının hansı işləri və hansı məbləğ qarşılığında gördüyünü biləcək".

Göründüyü kimi, uzun zamandır müxalifətçi maskası altında gizlənən Ə.Kərimli növbəti dəfə təkzibolunmaz faktlar qarşısında aciz qalıb və bu dəfə onun qaçacağı yer də yoxdur. Necə deyərlər, həm AXCP sədri, həm onun "siyasi mühacir" biznesinin Türkel Azərtürk tipli "dilerləri" özlərini açığa çıxarıblar.

**Rövşən RƏSULOV**

# Erkən evlilik, zorakılıq və cinsi yetkinlik problemləri

***Azərbaycanda aparılan araşdırmalar göstərir ki, 15-19 yaşlarında olan qadınların 79%-i ailədə qərarların qəbul edilməsində iştirak etmirlər. Çünki erkən evliliklərdə yaş fərqləri çoxdur. Bu evliliklərin 34%-də yaş fərqi 9 ildən, 18%-də 5 ildən artıqdır. İkincisi, savadsız və dünyagörüşü olmayan qızların qərar qəbuletmədə iştirakı effektiv ola bilməz.***

Rauf Məmmədov yazır: "Erkən evlilikdə ərlərin qadınlarına nəzarəti daha çox olur. Araşdırmalar göstərir ki, 15-19 yaşarası nəzarət səviyyəsi 50%-dən çoxdur. Təbii ki, bu nəzarətin güclü olması, ərlərin qadınlarına qarşı inamının zəif olmasından və tərəflər arasında münasibətlərin qeyri-səmimiyyətindən irəli gəlir. Təbii ki, bu nəzarət özlüyündə müəyyən zorakılıqlara da şərait yaradır. Zorakılıq, qorxu və hədə mexanizmi, erkən evliliyin qorunub-saxlanılmasına xidmət edir. Buna görə də, patriarxal ailələrdə qadınların ərləri tərəfindən döyülmələri normal hal kimi dəyərləndirilmişdir. SSRİ dövrünədək bu zorakılıq hallarına cəmiyyət də reaksiya verməmiş və bunu, ailədaxili məsələ kimi qiymətləndirmişdir. Əksər hallarda, ruhanilər bu məsələyə şəriət donu geyindirərək, haqq qazandırmağa çalışmışlar. Çünki ailədə zorakılığa məruz qalan qadın patriarxal sistemə kölə olmağa məcbur edilirdi. Bununla razılaşmayan və kiçik bir etiraz bildirən qadınlar ruhanilərin zina damğası adı altında daşa basılır (rəcm) və öldürülürdülər. Yəni bununla, digər qadınlara ibrət dərsi verilirdi.

Aparılan araşdırmalar təsdiq edir ki, Azərbaycanda (əsasən, kənd yerlərində) xüsusi səbəblərə görə, arvadın döyülməsinə haqq qazandıranlar az deyildir. Maraqlısı da odur ki, bu məsələdə qadınlarla kişilərin fikirləri təqribən yətlərdə miflər yeni obrazları vasitəsilə, canlı olaraq yaşamaqda davam edirlər".

Ailədə zorakılıq hallarının arxasında dərin patriarxal stereotiplər dayanır. Bu stereotiplər bu gün də bir çox ailələrdə zorakılığa yol açır. Ənənəvi olaraq, qadının ərinə itaətkarlıq səviyyəsi, kişinin cəmiyyətdə sosial statusunu müəyyənləşdirirdi. Hətta qadınlarını namus-şərəf adı altında öldürən kişilərin bir çoxu özlərini milli qəhrəman kimi cəmiyyətə təqdim edirdilər. Çünki cəmiyyət bu kimi hallara yüksək qiymət verirdi. Halbuki əksər hallarda, bu cinayətlərin əsl səbəbləri gizlədilir və üstü örtülürdü. Bu kimi cinayətlər qadınların sərbəst hərəkətini məhdudlaşdırır və onları evin içində həbs edirdi. Təəssüflər olsun ki, əsasən, əyalətlərdə bu kimi arxaik düşüncə formaları mövcuddur. Bu düşüncələrdə inqilab baş verməsə, qadın zorakılığı və erkən evlilik məsələsi heç bir zaman gündəmdən düşməyəcəkdir.

R.Məmmədovun fikrincə, erkən evliliyin cinsi yetkinlik məsələsi ilə birbaşa əlaqəsi vardır. Psixoloji araşdırmalar göstərir ki, cinsi istək meyilləri insanlarda çox kiçik yaşlardan başlasa da, yeniyetməlik dövründə daha da fəallaşır. Artıq 14-15 yaşlarında bir çox qız və oğlanların cinsi identikliklərini və gender rollarını daha qabarıq şəkildə nümayiş etdirən davranışları bunu təsdiq edir.

ka və Asiya cəmiyyətlərində evlənmək istəyən kişilər qız evinə "başlıq" (pul və ya mal qismində) ödəmək məcburiyyətindədirlər.

Nikahaqədər cinsi əlaqələrin qadağan olunduğu cəmiyyətlərdə cinsi tələbatların ödənilməsi bəzən ifrat əxlaqsızlıqların sosial normaya çevrilməsinə şərait yaradır. Məsələn, biz, Qədim Roma imperiyasının yaranması, inkişafı və süqutunun gender təhlilini apardığımız zaman, gördük ki, nikahaqədər cinsi əlaqələrin qadağan olunduğu və hətta, erkən evlilikdə belə qadınların bir şəhvət obyekti kimi dəyərləndirilmədiyi ilkin mərhələdə, homoseksual münasibətlər üçün zəmin formalaşdı. Bu münasibətlər sonralar genişlənərək, şəhvət obyektinin qadınlar deyil, yeniyetmə oğlanlar olmasına şərait yaratdı. Sosial normaya çevrilən bu adət, cəmiyyətdə qadınlara olan intim marağın azalmasına və qadınların da fahişəliyə meyil etmələrinə səbəb oldu. Təbii artım və ailə qurumunun iflasa uğraması nəticəsində, Roma imperiyası öz içindən çökdü. Roma cəmiyyəti, orada yaşayan qulların və kənardan gələn barbar immiqrantların cəməyyətinə çevrildi (müasir italyanları onların varisləri hesab etmək olar)."

Orta əsrlərdə katolik kilsəsi Avropada zina, boşanma, homoseksuallıq və nikahaqədər cinsi əlaqələrə qadağalar gətirsə də, erkən evliliyi və gender bərabərsizliyini ortadan qaldırmadı. Bu durum, Viktorian dövrünün sonunadək (XX əsrədək) belə davam etdi. XX əsrdə baş qaldıran seksual inqilab (abortlara icazə, kontraseptiv vasitələrin yayılması, qadağaların ortadan qaldırılması) tədricən ailə qurumunun zəifləməsinə və təbii artımın aşağı düşməsinə səbəb oldu. Bu isə, tədricən əhalinin qocalmasına və iqtisadi tənəzzülə səbəb olur. Bunun üçün, immiqrasiya müasir Avropanın bir cəmiyyət kimi varlığını məhv olmaq təhlükəsindən qoruyur. Müasir Avropa, eynilə, Qədim Romanın taleyini yaşayır.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

eyni səviyyədədir. Gənc yaşlı qızlar (15-19) bu məsələ ilə qismən razılaşırlar (39%). Lakin qadınların yaşı artdıqca, onların qadınlara qarşı zorakılığa haqq qazandırma səviyyəsi artır (39%-dən 50%-ə). Kişilərdə isə, əksinə proses baş verir. Onların yaşları artdıqca, qadınlara qarşı zorakılığa haqq qazandırma səviyyəsi azalır (63%-dən 50%-ə). Bu, onu göstərir ki, patriarxal adət-ənənələr gənc oğlanların düşüncələrində qadınlara qarşı aqressiyanı fomalaşdırır. Lakin tədricən onun səviyyəsinin azalması, bəzi kişilərin, yaşlandıqca, bu məsələyə münasibətdə müstəqil baxışlarının formalaşması ilə bağlıdır. Qadınlar arasında bu kimi düşüncələrin formalaşması və tədricən artması, patriarxal adət-ənənələrin şüurları manipulyasiya etməsi ilə bağlıdır. Yəni patriarxal sistemdə onun dəyərlərinin daşıyıcıları yalnız kişilər deyil, həm də mexaniki olaraq, qadınlar olurlar. Bunlar təhtəlşüur səviyyəsində baş verir. Kültür kodları arxetiplər vasitəsilə cəmiyyətin norma və davranışlarını müəyyənləşdirir. Bu baxımdan, irrasional cəmiy-

Şəhvət hissi nəsilartırma instinkti kimi təbii bir hissdir. Bütün canlı aləmdə təbii artımın əsasında, bu dayanır. Lakin heyvan sürüsündən fərqli olaraq, insan cəmiyyətində bu hissi tənzimləyən müəyyən mədəni etiketlər, sosial əxlaq normaları, siyasi-ideoloji tənzimləmə mexanizmləri mövcuddur. Bir çox mədəniyyətlər və kültürlər arasında olan fərqlər də bundan irəli gəlir.

R.Məmmədov yazır: "Nikahaqədər cinsi əlaqələrin qadağan olunduğu cəmiyyətlərdə kişilərin də tez evlənmələri (17-20 yaşlarında) zərurətə çevrilir. Çünki zina etmək həm cəmiyyətin qınağına, həm də ağır cəzaların tətbiqinə səbəb olur. Belə cəmiyyətlərdə fahişəliyin açıq yayılması mümkün olmadığı üçün, tez evlilik normaya çevrilir. Nikahaqədər cinsi əlaqələrin qadağan olunduğu cəmiyyətlərin idarəolunma mexanizmində böyük səhvlər vardır. Maraqlıdır ki, mövcud sosial-mədəni şərtlər, bir tərəfdən, gəncləri erkən evliliyə vadar edir, digər tərəfdən, evliliyin qarşısında böyük əngəllər yaradır. Məsələn, erkən evliliyin geniş şəkildə yayıldığı əksər Afri-

Müəllifin fikrincə, bu gün nikahaqədər cinsi əlaqələrin qadağan olunduğu cəmiyyətlər əsas etibarı ilə Asiya və Afrikada yerləşirlər. Bu cəmiyyətlər, nikahaqədər cinsi əlaqələrə qoyulan sosial qadağaların sərtliyi və yumşaqlığına görə, bir-birindən fərqlənirlər.

Nikahaqədər cinsi əlaqələrin sərt şəkildə qadağan olunduğu cəmiyyətlərə Yaxın Şərqin ərəb ölkələrini misal göstərmək olar. Buna görə də, onlarda erkən evliliklər daha çox yayılır. Bir çox zəngin ərəb ölkələrində çoxarvadlılığa meyil yüksəkdir. Bu bir deyil, bir neçə azyaşlı qızla evlənmək deməkdir. Erkən evliliklərin yayıldığı ərazilərdə (Cənubi Amerika istisna olmaqla) poliqamiya (çoxarvadlılıq) geniş yayılmışdır. Bu bir daha göstərir ki, erkən evliliklər poliqamiya arasında müəyyən əlaqələr vardır. Xüsusilə, poliqamiya ərəb və dindar yəhudilər, həmçinin, bir sıra Afrika və Cənubi Asiya qəbilələri arasında tətbiq olunur.

Yoxsul cəmiyyətlərdə poliqamiyanın geniş yayılması mümkün deyildir. Çünki patriarxal cəmiyyətlərdə evlənən kişilər ailənin bütün maddi təminatına məsuliyyət daşıyırlar. Maddi imkanları aşağı olanlar bunu edə bilməzlər. Poliqamiya belə cəmiyyətlərdə kişilərin sosial statusunu müəyyənləşdirir.

Nikahaqədər cinsi əlaqələrin sərt şəkildə qadağan olunduğu cəmiyyətlərdə cinsi tələbat çox vaxt eybəcər formalarda təmin olunur. Onlardan biri də, tarixən və bu gün də geniş yayılan oğlanbazlıqdır.

Əfqanıstanda "bəççe-bazi" (rəqqas oğlan uşağı) adı ilə tanınan bir adət vardır. Bu adət, qədimdən Mərkəzi Asiyada, Qədim Yunanıstanda və digər yerlərdə yayılıbdır. Lakin onun bu gün ən çox bilindiyi yer Əfqanıstandır. Əsasən, puştu tayfaları arasında geniş yayılıbdır. Bu adət, XX əsrədək Azərbaycanda da "uşaqbazlıq" adı altında yayılmışdır. Bu adətə görə, yoxsul ailələrdən olan kiçik oğlan uşaqlarından birini (daha çox qızabənzər olanı) valideynləri maddi gəlir əldə etmək məqsədilə bu işə baxan adamlara verirlər. O, bu uşaqlara oxuyub-rəqs etməyi öyrədir və qız geyimində təqdim edir ki, onlar məclislərdə varlı kişiləri cinsi baxımdan əyləndirsinlər. Bu yolla pul qazanan uşaqlar öz ailələrinə maddi yardım edirlər. Onlarla əylənən kişilər isə, cəmiyyətdə bunu özləri üçün ayıb saymırlar. Yəni bu əfqan cəmiyyəti üçün, normaya çevrilib. Çünki qadın və qızların naməhrəm kişilərlə ünsiyyəti tamamilə kəsilmişdir. Belə patriarxal cəmiyyətdə naməhrəm qadınlarla cinsi əlaqə zina kimi qiymətləndirilir və ölüm ilə nəticələnir. Buna görə də, öz cinsi tələbatını ödəyə bilməyən kişilər belə oğlan uşaqları ilə cinsi əlaqəyə girməyi və onları qadın qismində istifadə etməyi normal hesab edirlər. Talibançılar Əfqanıstanda nə qədər kəskin mübarizə aparsalar da, bu adəti ortadan qaldıra bilmədilər.

***VAHİD ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 18 iyul




## YAP Xaçmaz rayon təşkilatında “Oxu aylığı”nın yekun mərhələsi keçirilib

*Bu mərhələ YAP Xaçmaz rayon təşkilatı “Qurtuluş Günü” və Ulu Öndər Heydər Əliyevin “Hakimiyyətdə 50 illiyi” ilə əlaqədar olub*



Dünən YAP Xaçmaz rayon təşkilatı “Qurtuluş Günü” və Ulu Öndər Heydər Əliyevin “Hakimiyyətdə 50 illiyi” ilə əlaqədar “Oxu aylığı”nın yekun mərhələsi ilə bağlı tədbir keçirib. Tədbiri giriş sözü ilə YAP Xaçmaz rayon təşkilatının sədri Nazim Ağayev açaraq 1969-cu ilin 14 iyul günü Azərbaycan tarixində keyfiyyətcə yeni bir səhifə olduğunu bildirib: “50 il öncə, başlanan yol Heydər Əliyevin xalqı, milləti ilə bütünləşməsi və bütövləşməsi yolu olub. Ən əsası odur ki, xalq, millət bu illər ərzində heç vaxt özünü Heydər Əliyevdən, Onun böyük və müdrik rəhbər dühasından ayrı görməyib. Məhz bu səbəbdəndir ki, Azərbaycan xalqı bu illərdə özünü tənha, arxasız və güvənsiz hiss etməyib”. N.Ağayev onu da vurğulayıb ki, həmin tarixdən 50 il keçməsinə baxmayaraq, xalqımız Ulu Öndərimizin uzaqgörən, elmi-iqtisadi cəhətdən əsaslandırılmış siyasətinin bəhrəsini görür, bu məktəbin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin şəxsində Azərbaycanın firavan gələcəyinə zəmin yaradan siyasəti dəstəkləyir.

N.Ağayev “Oxu aylığı”nın əsas məqsədi haqqında məlumat verərək bildirib ki, insanların, əsasən, gənclərdə oxu vərdişləri yaradılmasından ibarətdir: “Oxu aylığı”nda rayon üzrə fəal oxucuların sayı kifayət qədər artmış və bu müsabiqənin iştirakçıları partiya tərəfindən mükafatlandırılması həyata keçirilmişdir”.

Sonda “Oxu aylığı”nda fərqlənən 5 nəfər gənc fəal oxucu partiya tərəfindən qiymətli hədiyyələrlə mükafatlandırılıb. Tədbirdə YAP Xaçmaz rayon təşkilatının idarə heyətinin üzvü təhsil şöbəsinin müdiri Mədinə Nurməmmədova çıxış edib. Tədbirdə, həmçinin, rayon ümumtəhsil məktəblərində fərqlənmə attestatı alan məzunlara fərqlənmə atestatları da təqdim edilibdir.

**R.HÜSEYNOVA**

## BMT açıqladı: Dünyada 4 milyard insan sosial müdafiədən məhrumdur!

BMT-nin baş katibi Antonio Quterreş təşkilatın Nyu-Yorkdakı mənzil-qərargahında keçirilən Yüksəksəviyyəli Siyasət Forumunun “nazirlər seqmentinin” iclasında bildirib ki, hazırda planetimizdə 4 milyard insan sosial müdafiədən məhrumdur. Onun sözlərinə görə, 2050-ci ildən bəri işsizliyin artması tendensiyası zəifləsə də, maaşların artımında durğunluq hökm sürür, qadınların 30 faizi və gənc kişilərin 13 faizi təhsilsiz və işsizdir.

## ELAN

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Kərimov Məhəmməd Zeynalabdin oğluna məxsus Bakı şəhəri, Xətai rayonu, İlqar Abbasov küçəsi-30 ünvanda yerləşən qeyri-yaşayış binasına verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

* * *

Başı Şəhər İcra Hakimiyyəti və Qarabağ Müharibəsi Əlilləri Cəmiyyəti tərəfindən Suraxanı rayonu, “Bahar” qəsəbəsində Ələkbərov Elşad Heydər oğluna verilmiş 6 sot torpağa məxsus sənəd itdiyi üçün etibarsız sayılır.

* * *

Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən Kərimov Məhəmməd Zeynalabdin oğluna məxsus Qəbələ rayonu, Qəmərvan kəndində yerləşən fərdi yaşayış evinə verilmiş çıxarış itdiyi üçün etibarsız sayılır.

# Əbədiyaşar LİDER

### ZƏRDABDA ÜMUMMİLLİ LİDERİN ÖLKƏMİZDƏ İLK DƏFƏ SİYASİ HAKİMİYYƏTƏ GƏLİŞİNİN 50 İLLİK YUBİLEYİ QEYD OLUNUB





Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlməsinin 50 illiyi münasibəti ilə Zərdab rayon icra hakimiyyətinin və Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının birgə təşkilatçılığı ilə tədbir keçirildi. Tədbirdə iştirak edənlər Azərbaycanın qüdrətli və müstəqil bir dövlət kimi formalaşmasında, inkişaf etməsində, xalqımızın firavan yaşamasında müstəsna xidmətləri olan Ümummilli Liderimiz Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək, abidəsi önünə tər güllər düzüblər.

Tədbirin Zərdab rayon Heydər Əliyev Mərkəzində keçirilən rəsmi hissəsində çıxış edən YAP Zərdab rayon təşkilatının şura üzvü, Zərdab rayon icra hakimiyyəti başçısının birinci müavini Rəhman Feyzullayev bildirib ki, Ümummilli Liderin fəaliyyəti dövründə baş vermiş müsbət dəyişikliklərin keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi böyük əhəmiyyət kəsb edib. Ona görə də, tam əminliklə deyə bilərik ki, müstəqil Azərbaycanın indiki uğurlarının təməli, məhz o illərdə qoyulub. Dahi Öndər Heydər Əliyev hakimiyyətinin 1969-1982-ci illər dövrünün təhlili göstərir ki, həyata keçirilən tədbirlərin tam əksəriyyəti böyük uzaqgörənliklə bu günümüzə hesablanıb”.

R.Feyzullayev bildirib ki, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövr ərzində də, böyük şəxsiyyət Heydər Əliyev müstəqilliyimizin möhkəmləndirilməsi, müstəqil dövlət təsisatlarının yaradılması, Azərbaycanın beynəlxalq imicinin gücləndirilməsi və bütün sahələrdə mütərəqqi islahatların aparılması istiqamətində tarixi addımlar atıb.

Tədbirdə digər çıxış edənlər bildiriblər ki, bu gün Dahi Öndər Heydər Əliyevin siyasi kursunun Prezident İlham Əliyev tərəfindən uğurla və yaradıcı şəkildə davam etdirilməsi iqtisadi inkişaf tədbirlərini daha da sürətləndirir.

**Nəzakət**

## Kolleclərə qəbul olunmaq üçün 23 mindən çox abituriyent ərizə verib



Ümumi (9 illik) təhsil bazasında kolleclərə qəbul olmaq üçün elektron ərizə verməyən və buraxılış imtahanı nəticəsi müsabiqə şərtini ödəyən cari ilin abituriyentlərinin ərizə qəbulu davam edir. İyulun 17-si saat 11:10-a olan məlumata görə, kolleclərə qəbul olunmaq üçün ümumilikdə 23 min 244 abituriyentin (Azərbaycan bölməsi üzrə 22 min 595, rus bölməsi üzrə 649) ərizəsi təsdiqlənib.

Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, 9 illik orta təhsil bazasında kolleclərə ərizə qəbulu 2019-cu il fevralın 22-dən martın 11-dək aparılıb. Bu müddət ərzində qeydiyyatdan keçməyən, lakin buraxılış imtahanlarının hər iki mərhələsində iştirak edərək orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtlərini ödəyən abituriyentlər avqustun 5-dək “ekabinet.dim.gov.az” internet səhifəsində “Şəxsi kabinet” yaratdıqdan sonra istifadəçi adı və paroldan istifadə etməklə “Abituriyentin elektron ərizəsi” formasını doldurub təsdiq edə bilərlər.

Qeyd edək ki, 9 illik bazada kolleclərin ixtisas seçiminə isə ümumi balı (hər iki mərhələ üzrə) 50-dən, Azərbaycan (rus) dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılırlar. Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində fənlər üzrə bal məhdudiyyəti tətbiq olunmur. İxtisas seçimi iyulun 24-dən avqustun 5-dək aparılacaq.


**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir. “Azərbaycan” nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600